www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-27 may 2024-cü il Şənbə № 91 (8464) Qiymıəti 60 qəpik

**Xəbər**

**Ciddi bahalaşma olacağı xəbərləri - inanaq, inanmayaq?**

yazısı səh.13-də

**Gündəm**

**Bəzi dövlətlər Minsk Qrupundan çıxa bilər**




Belarus ev sahibliyi eləyən ölkə statusundan imtina edəcək?

yazısı səh.9-da

**Bu gün Bakıda iməcilik var - sovet ənənəsi, yoxsa...**

yazısı səh.10-da

**Rusiya Ermənistandakı səfirini geri çağırdı**

yazısı səh.11-də

**Yay gəlməmiş hotellərdə qiymətlər dəyişdi**

yazısı səh.13-də

**Xaricdən 5 milyard borc istəyirik - səbəblər**

yazısı səh.15-də

**Mərkəzi Asiyanın "açar dövləti" - Bakıda imzalanan sənədin sirri**

yazısı səh.6-da

**Dəyişməyən erməni zehniyyəti - sərhəddə divar...**

yazısı səh.11-də

**Parlamentdə pensiyalarla bağlı mübahisələr**

yazısı səh.12-də

**"Mehriban düşmənçilik" davam edəcək, yoxsa...**

yazısı səh.9-da

**Siyavuş Novruzov milyoner olması haqda nələr dedi?**

yazısı səh.7-də

**Qərb MDB ölkələrində "rəngli inqilablar"a çalışır**

yazısı səh.6-da

# DÖRD KƏNDDƏN SONRA KƏRKİ...

Azərbaycanın Qazax istiqamətində hərbi-strateji mövqeləri gücləndi, perspektivdə anklavların, həmçinin SSRİ dövründə ermənilərə bağışlanmış ərazilərimizin azad ediləcəyi gözləntisi də var



yazısı səh.5-də

## Xaricdəki "söyüş makinaları"nın sonu çatır - cinayət işi

Sonrakı mərhələdə Azərbaycanın tələbi üzrə ekstradisiya edilə bilərlər

yazısı səh.4-də



**Cahangir Hacıyevin azadlığı üçün 6 milyard**

yazısı səh.3-də



**Şeyxə yaslarla bağlı fətva çağırışı**

yazısı səh.10-da



**Blinkenin anonsu: İrəvan ABŞ-dan mühüm cavab gözləyir**

yazısı səh.8-də



## Prezidentdən İsmət Abasovla bağlı sərəncam

**İsmət Abasov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə İsmət Dursun oğlu Abasov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Qeyd edək ki, İsmət Abasov 2004-2013-cü illərdə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri, 2013-2018-ci illərdə baş nazirin müavini olub.



## Azərbaycan və Moldova DİN-ləri saziş imzalayıblar

**Moldovanın daxili işlər naziri Adrian Efrosun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib.**

Bu barədə "Report" Daxili İşlər Nazirliyindən (DİN) məlumat verilib.

Bildirilib ki, daxili işlər naziri Vilayət Eyvazov Moldova ilə Azərbaycan arasında əlaqələrin və qarşılıqlı münasibətlərin getdikcə daha da dərinləşdiyini məmnunluqla vurğulayıb.

Mövcud problemlərə toxunan daxili işlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Moldova Respublikasının daxili işlər naziri Adrian Efros iki ölkənin nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyinə əminliyini, rəhbərlik etdiyi qurumun bu istiqamətdə öz səylərini əsirgəməyəcəyini, azərbaycanlı həmkarlarının cinayətkarlıqla mübarizə, ictimai asayişin təmini sahəsində əldə etdikləri müsbət təcrübənin öyrənilməsində maraqlı olduğunu bildirib.

Görüş zamanı nazirlər "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalayıblar.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, "102" və "Təhlükəsiz şəhər" xidmətlərinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.




## Müdafiə Nazirliyinin həbsdə olan generalının yerinə təyinat

**Müdafiə Nazirliyinin Maliyyə-Büdcə İdarəsinə yeni rəis təyin edilib.**

Müdafiə Nazirliyindən bildirilib ki, bu barədə general-polkovnik Zakir Həsənov əmr imzalayıb.

Əmrə əsasən, bu vəzifəyə polkovnik Rəşad Babayev təyin edilib.

Xatırladaq ki, MN-in Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi Nəriman Cabbarov bir neçə gün əvvəl sərəncama götürülüb. Onun adı MN-dəki 143 milyonluq cinayət işində keçib və polkovnik məhkəmədə şahid qismində dindirilib. MN-in Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov isə hazırda həbsdədir.

# Qazaxın kəndlərini Prezidentə məruzə edən general kimdir?



**Qazax rayonunun nəzarətə götürülən Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin ərazilərində Azərbaycan bayrağı ucaldılıb. Dövlət Sərhəd Xidmətinin (DSX) həbçiləri Qazaxın kəndlərindən Prezident İlham Əliyevə məruzə edib.**

Prezidentə məruzə edən hərbçimiz DSX Baş Qərargahının Dövlət Sərhəd Mühafizəsi Baş İdarəsinin rəisi general-mayor Vüsal Sultanovdur.

Vüsal Sultanov Şabran rayonunda anadan olub. Vətən müharibəsinin iştirakçısı olan hərbçimiz 9 dekabr 2020-ci ildə göstərdiyi şücaətə görə "Vətən Müharibəsi Qəhrəmanı" medalı, 24 dekabr 2020-ci ildə isə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

O, müharibə zamanı Əmirvarlı döyüşlərinə rəhbərlik edib. Vətən müharibəsi dövründə polkovnik rütbəsi daşıyan Sultanov 2021-ci ilin iyulun 17-də Çevik Hərəkət Qüvvələri Komandanının birinci müavini - qərargah rəisi təyin edilib. Ona 2022-ci ilin avqust ayında "general-mayor" ali hərbi rütbəsi verilib.

2023-cü ilin iyun ayında isə DSX-də Baş Qərargahın Dövlət Sərhədinin Mühafizəsi Baş İdarəsinin rəisi vəzifəsinə gətirilib.

General-mayor Sultanov "Hərbi xidmətlərə görə" medalı, "İgidliyə görə" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən Müharibəsi Qəhrəmanı" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilib.



## Birinci Qarabağ müharibəsinin şəhidi dəfn edilib

**Gəncə şəhərindəki Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilmiş Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Nuhu Mustafa oğlu Mustafayevlə Ağsu rayonunun Qaraməmmədli kəndində vida mərasimi keçirilib.**

Şəhidin nəşi Ağsu rayonu Şəhidlər xiyabanında dəfn olunub.

Dəfn mərasimində şəhidin doğmaları, Ağsu Rayon İcra Hakimiyyətinin vəzifəli şəxsləri, rayon hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.



## Nikah yaşına çatmayanlara dini kəbinin kəsilməsi qadağan edilir

**Azərbaycanda uşaq hüquqları ilə bağlı yeni sənədlər hazırlanır.**

Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva məlumat verib.

O qeyd edib ki, "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" əsasında hazırlanan iki sənəd yekunlaşıb, qəbul olunub.

Sədr müavininin sözlərinə görə, uşaq hüquqları ilə bağlı qanun layihəsi artıq aidiyyəti qurumların rəy mərhələsindədir. O qeyd edib ki, qanun layihəsində uşaqlarla bağlı inzibati və məhkəmə icrası ilə alaqədər yeni tələblər yer alıb.

O qeyd edib ki, uşaq hüquqları ilə bağlı yeni hazırlanan qanunda bu kimi bir çox önəmli məqamlar öz əksini tapıb. Sədr müavini qanunla nikah yaşına çatmayan şəxslərə dini kəbinin kəsilməsinin qadağan ediləcəyini vurğulayıb.

## Fransa səfiri Laçında

**Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon işğaldan azad olunmuş Laçın rayonuna səfər edib. O, indiyə kimi Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə getməməklə ölkə ictimaiyyətinin qınağına tuş gəlmişdi.**

Səfirin Şuşa, Laçın və Qarabağın digər bölgələrinə getməməsi Ermənistanı dəstəkləyən, Qarabağın Azərbaycanın nəzarətinə keçməsini həzm edə bilməyən rəsmi Parisin siyasətindən irəli gəlirdi.

Ann Buayon bu yaxınlarda Bakı ilə Paris arasında münasibətlərin gərginləşməsi fonunda məsləhətləşmələr üçün Parisə çağırılmışdı. Fransa Xarici İşlər Nazirliyi açıqlamasında xanım diplomatın Prezident Emmanuel Makron tərəfindən qəbul edildiyini bildirmişdi.

Lakin rəsmi Paris sonradan səhvini anlayaraq, səfir Ann Buayonu yenidən Bakıya qaytardı. Səfir mayın 24-də Laçına səfər edib.

Sabiq xarici işlər naziri Elmar Məmmədyarov isə bildirib ki, Fransa artıq Azərbaycanın yaratdığı yeni reallıqları qəbullanır: "Ümumiyyətlə Fransanın Azərbaycandakı səfiri xanım Ann Buayonun işğaldan azad olunmuş Laçın ərazisinə səfəri müsbət hadisədir. Fransa Azərbaycanın regionda yaratdığı reallıqlara ciddi yanaşır və onu artıq qəbul edir. Fransa səfiri yeganə səfir idi ki, işğaldan azad olunmuş əraziyə səfər etmirdi. Çox güman ki, bunu rəsmi Paris də anlayıb. Beləliklə də, səfirə göstəriş veriblər ki, işğaldan azad olunmuş torpaqlara səfər edə bilər".

## Bakıda intensiv yağış yağacaq

**Bakıda və Abşeron yarımadasında mayın 25-i gününün birinci yarısında, 26-sı axşam arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var.**

Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Azərbaycanın rayonlarında mayın 24-ü gündüzdən 27-dək bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Naxçıvan MR, Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) yağıntıların leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimal var.

Mayın 25-dən 26-sı gündüzədək şərq küləyinin 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 25-30 m/s-dək güclənəcəyi gözlənilir.



## "Duzdağ" İqtisadiyyat Nazirliyinə verilib

**Naxçıvan Muxtar Respublikasında "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsi ləğv edilib.**

Bununla bağlı muxtar respublikanın Ali Məclisi sərəncam imzalayıb.

Sərəncama əsasən, "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsin əmlakı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə isə bununla bağlı işlərin həyata keçirilməsi tapşırılıb. Sərəncam qüvvəyə minib.

Qeyd edək ki, 1979-cu ildə duz mədəni bazasında Naxçıvan Fizioterapiya Xəstəxanası yaradılıb, 2008-ci ildən isə Duzdağ Fizioterapiya Mərkəzi kimi fəaliyyətini davam etdirib. 2017-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ozamankı sədri Vasif Talıbovun imzaladığı sərəncamla Mərkəzə publik hüquqi şəxs statusu verilib.

Xatırladaq ki, Mərkəzdə bronxial-astma və ağciyər xəstələri müalicə olunur. Müalicə üçün buraya hər il ölkəmizdən və xaricdən 4000-ə yaxın müraciət olur.

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Cahangir Hacıyevin azadlığı üçün 6 milyard

## Azərbaycan Beynəlxalq Bankına 15 il sədrlik edən və hazırda həbsdə olan sabiq bankirin dağıtdığı pulları dövlət özü ödəyir...

**"Vaxtilə dövlətə məxsus "Azərbaycan Beynəlxalq Bankı" ASC sağlamlaşdırılanda "Aqrarkredit" QSC bank olmayan kredit təşkilatı onun toksik aktivlərini alıb, daha sonra isə Azərbaycan Mərkəzi Bankından (AMB) kredit cəlb edib. Biz toksik aktivləri balans qiymətinə uyğun almışdıq. İndi onları bazar qiymətinə uyğun qaytarırıq və nəticədə borc yaranır. Biz də bu borcu daxili dövlət borcunun tərkibinə daxil etdik. Odur ki, daxili dövlət borcu çox görünür". Maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında daxili dövlət borcunun çox olması barədə deputat Vahid Əhmədovun dediklərinə belə münasibət bildirib.**

Cahangir Hacıyev 15 ilə yaxın Azərbaycan Beynəlxalq Bankının sədri olub. Eldar Mahmudov milli təhlükəsizlik naziri postunu tutduğu dönəmdə qudası olan Cahangir Hacıyev Azərbaycan Beynəlxalq Bankını qanundankənar idarə edirdi, kimsəni saymırdı, dövlətin payı olan bankın vəsaitlərini sağa-sola dağıdırdılar. 2015-ci ildə Eldar Mahmudov vəzifədən qovulandan sonra Cahangir Hacıyevi və ətrafını həbs etdilər. Cahangir Hacıyev 2016-cı il oktyabrın 14-də 15 il müddətinə azadlıqdan məhrum edilib. Ondan başqa daha üç təqsirləndirilən şəxs faktiki cəza, dördü isə şərti cəza alıb.




Məhkəmə təqsirləndirilən şəxsləri Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma, ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq odlu silahı, onun komponentlərini, döyüş sursatlarını əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddələri ilə təqsirli bilib.

C.Hacıyev günahını etiraf etməyib, müdafiəçiləri isə prosesi qərəzli adlandırıb. Mənimsənilmiş vəsaitin dəqiq məbləği hələ məlum deyil. Qeyri-rəsmi məlumatlara görə, söhbət 4 milyard manatdan gedir.

2018-ci ilin dekabrında Baş Prokurorluq Hacıyevə qarşı külli miqdarda pul vəsaitlərinin mənimsənilməsi, cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulması, vergidən yayınma və s. ittihamlar irəli sürüb. 2019-cu ilin sentyabrında məhkəmə Hacıyevin həbs müddətinə daha bir il yarım əlavə edib.

Lakin 2020-ci ilin fevralında Bakı Apelyasiya Məhkəməsi cəzanın yüngülləşdirilməsi ilə əlaqədar müddəti 3 ay azaldıb.

2022-ci ilin fevralında Avropa İnsan Haqları Məhkəməsi Hacıyevin məhkəməyəqədər həbslə bağlı şikayətini təmin və 3500 avro məbləğində təzminat təyin edib.

Mayın 1-də isə belə bir xəbər yayılmışdı ki, Cahangir Hacıyev effektiv tibbi xidmətin olmamasına və saxlanma şəraitinə etiraz olaraq 13 saylı həbsxanada aclıq edir. Penitensiar Xidmət isə məlumatın həqiqəti əks etdirmədiyini iddia edib.

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Azərbaycanda külli miqdarda büdcə vəsaitini mənimsəyən şəxslərin həbsi adi hal alıb. Adamlar böyük məbləğləri mənimsəməklə dövlətə, ayrı-ayrı vətəndaşlara çox böyük iqtisadi zərər vururlar. Həbsə alınandan sonra həmin mənimsədikləri məbləğin 15-20 faizini xərcləyir, zərərin az hissəsini qaytarırlar. Nəticədə belə mənimsəmələr, büdcə pullarını oğurlamalar, vətəndaşlara qarşı vəzifə daşıyıcılarının mütəşəkkil dəstə şəklində cinayətlərinin sayı artır: "Konkret Cahangir Hacıyevə gəldikdə, ona qarşı irəli sürülən ittihamlara nəzər salsaq, bu adam uzun illər ölkənin sistem xarakteri daşıyan bankına rəhbərlik edib və həmin bankı rəsmən çapıb talayıblar. Aydın məsələdir ki, bu cinayəti Cahangir Hacıyev təkbaşına etməyib və edə də bilməzdi. Lakin məhkəməsində Cahangir Hacıyev bu haqda susmağa üstünlük verdi. Yəni özünün cinayət ortaqlarını ələ verməkdən yayındı. Belə bir halda, ona qanunun ən sərt üzü göstərilməli idi və göstərildi də. "Azərbaycan Beynəlxalq Bankı" ASC və onun törəmə müəssisəsi olan "Bank MBA Moskva" MMC-yə 69 müəssisənin veksellər və kredit borcları, eləcə də Azərbaycan Respublikasının ərazisində olan 17 yerli müəssisə və şirkətə verilmiş kreditlər üzrə banka dəymiş ziyan ümumilikdə 4 milyard 100 milyon manat təşkil edib. Cahangir Hacıyev nə qədər zərər qaytarıb?"

Natiq Ələsgərov deyib ki, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" prezident fərmanına görə vurduğu iqtisadi zərəri ödəməyən şəxs məhkəmənin müəyyən etdiyi cəzanı tam şəkildə çəkməlidir:

"Bunun üçün cəzaçəkmə müəssisələrində rüşvət yığışdırılmalı, qandallanmış korrupsionerlər üçün türmədə lüks yaşayış şəraiti tam şəkildə aradan qaldırılmalıdır. Bu gün dövlət büdcəsini talayan məmurlar həbsə düşəcəkləri halda türmədə aylıq 5-10 min manat hesabına günlərinin pis keçməyəcəyini bilirlər. Ona görə də çox böyük məbləğlər oğurlamağa iştahlıdırlar. Bilirlər ki, oğurladıqlarının az bir hissəsini verib türmədə yaşayışlarını təmin edəcəklər. Yəni özünə orada yüksək şəraitli kamera düzəltdirə biləcəklərinə əmindirlər. Belə münasibətlər sisteminin varlığı büdcə oğurluqlarını stimullaşdırır. Məmurların cinayətlərini müəyyən etmək üçün ilk növbədə onların gəlir və xərcləri üzərində nəzarət olmalıdır. Məmurların gəlir və xərclərinin bəyan edilməsi haqqında qanunvericilik qəbul edilməli və mütləq icra olunmalıdır. Digər tərəfdən, məhkəmə-hüquq islahatları da dərinləşdirilməlidir. Əvvəl-axır hər şeyə qiymət verən məhkəmələrdir".

Natiq Ələsgərov deyib ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda ən geniş yayılmış cinayət dələduzluq və oğurluqdur: "Dələduzluq üzrə maddələrdə nəzərdə tutulub ki, bir şəxs vurduğu zərəri ödəyirsə, bundan başqa vurduğun zərərin yarısını dövlət büdcəsində keçirirsə, məsuliyyətdən azad olunur. Cəza siyasətinin humanistləşdirilməsi cəza ilə bağlı məsələlərin iqtisadi tərəfinin də həllini tənzimləyir. Azadlıqdan məhrumetmə dövlətə heç də ucuz başa gəlmir. Penitensiar Xidmətin saxlanmasına dövlət büdcəsindən, faktiki, vətəndaşların cibindən ayrılan vəsaitlərin miqdarı dəfələrlə azalacaq. Böyük nəzarətçi korpusu, çoxsaylı maşın parkı, idarəetmə aparatı təkmilləşəcək. Oğurluq, dələduzluq, vergidən yayınma kimi cinayətlərdə vətəndaş vurduğu ziyanı ödəyirsə, üstəlik cərimə də ödəyirsə, onu həbs etməklə nəyə nail olmaq olar? Bu sahədə cərimələrin artırılması da düzgündür. Bundan dövlət büdcəsinə ancaq xeyir var. Digər tərəfdən də bu hallar korrupsiya cinayətlərinin də qarşısını alacaq. Azərbaycanda vətəndaşların əksəriyyətinin ən qorxduğu məsələ azadlıqdan məhrum edilmədir. Ən kasıb, imkansız birinə həbs təhlükəsi yaranırsa, qohum-əqrəba, dost-qardaş bir yerə toplanır, pul yığır və çıxış yolu aramağa, həbsdən yayındırmağa yollar axtarırlar. Hakimə, prokurora yollar axtarırlar ki, məsələni həll etsinlər. Onsuz da yol tapır, pullarını verirlər. Belədirsə, qoy həmin pullar kimlərinsə cibinə deyil, dövlət büdcəsinə getsin. Korrupsiya olanda vətəndaşın xərci qat-qat artıq olur. Belə isə vətəndaş vurduğu ziyanı ödəyəcək, dövlət büdcəsinə cərimə ödəyəcək. Bu, məsələnin daha ədalətli həlli olmaqla yanaşı, büdcəni məhbusa pul ayırmaqdan azad edir və büdcəyə əlavə gəlir daxil olmasına yol açır".

Natiq Ələsgərov deyib ki, Cahangir Hacıyev azadlığa çıxmaq istəyirsə, bu ona təxminən 6 milyard manatdan bir qədər artıq vəsaitə başa gələcək: "Bu gün qüvvədə olan Azərbaycan qanunları bunu deyir. İndi əsas sual da budur ki, Cahangir Hacıyevin bu qədər pulu geri qaytarmaq fikri varmı? Olsaydı, Hacıyev həmin məbləği ödəyər, gedib London küçələrində özü üçün sərbəst gəzib dolaşardı. Daha acınacaqlı saxlama şərtlərinə qatlaşıb azadlığa çıxacağı günü gözləməzdi".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Bakıda 4 məktəbin direktoruna şiddətli töhmət

## Ümumtəhsil müəssisələrində yoxlamalar davam edir

**Paytaxtın 39, 182, 153 və 151 saylı tam orta məktəblərində aparılan yoxlamalar zamanı bir sıra nöqsanlar aşkarlanıb və sözügedən təhsil müəssisələrinin direktorlarına, direktor müavinlərinə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.**

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən verilən xəbərə görə, 39 nömrəli tam orta məktəbdə bəzi dərnəklərin tədris olunmadığı, kiçik xidmətedici işçilərin işə davamiyyətinin zəif olduğu, təsərrüfat işləri üzrə direktor müavininin oğlunun tabeliyində gözətçi vəzifəsində çalışdığı müəyyən edilib. Eyni zamanda, sənədləşmə işlərində və dərsə davamiyyətdə nöqsanlar aşkarlanıb, təhsil müəssisəsinin direktoruna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

182 nömrəli tam orta məktəbdə aparılan yoxlama zamanı dərnəklərin düzgün tərtib olunmadığı, məktəbdə repetitor fəaliyyətinin həyata keçirildiyi müəyyən edilib. Bununla yanaşı, sənədləşmə işlərində nöqsanlar aşkarlanıb, təhsil müəssisəsinin direktoruna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

153 nömrəli tam orta məktəbdə şagird davamiyyətinin zəif olduğu, dərslərin tədris olunmasında nöqsanlar olduğu, məktəbə dalandar təyin edilmiş işçinin,ümumiyyətlə, iş yerində heç vaxt olmadığı, kiçik xidmətedici işçilərin öz vəzifə funksiyalarını yerinə yetirmədiyi müəyyən edilib. Eyni zamanda məktəbin şagirdinin ölkə xaricində olmasına baxmayaraq qiymətləndirmə aparıldığı, bəzi şagirdlərin həftənin müəyyən günlərində dərslərdə iştirak etmədikləri halda, fənn müəllimləri tərəfindən formal olaraq qiymətləndirildikləri aşkar edilib, təhsil müəssisəsinin direktoruna sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

151 nömrəli tam orta məktəbdə dərnək və dərsdənkənar məşğələlərin tədris olunmadığı, uzun müddət dərsdə olmayan müəllimlərin əvəzinə jurnalda qeydlər aparıldığı, həmçinin tədris olunmalı olan dərslərin, dərsdənkənar məşğələlərin tədris olunmadığı, şagird davamiyyətinin zəif olduğu aşkarlanıb. Təhsil müəssisəsinin təlim-tərbiyə işləri üzrə direktor müavininə, eyni zamanda məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçısına sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

Qeyd edək ki, ümumi təhsil müəssisələrində yoxlamalar davam etdirilir.

# Ölkədə 6 minə yaxın şəxs niyə zəhərlənib?



**Son 1 ildə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsində 6 minə yaxın vətəndaşa tibbi xidmət göstərilib.**

TƏBİB-dən verilən xəbərə görə, Qafqazda ilk kəskin kimyəvi zəhərlənmələrin müayinəsi və müalicəsi ilə məşğul olan Toksikologiya şöbəsinin əsaslı təmirindən və müasir tibbi avadanlıqlarla təchiz olunmasından sonra şöbəyə müraciət edən pasiyentlərin də sayında artım müşahidə olunub.

Son bir ildə şöbəyə zəhərlənmə səbəbilə 5548 nəfər qəbul edilib ki, bu da ötən dövrlə müqayisədə kifayət qədər yüksək rəqəm hesab edilir. Onlardan 500-ü uşaq, 2020-si kişi, 3028-i qadın olub. Pasiyentlərə zəruri tibbi yardım göstərilib, düzgün və vaxtında aparılan müayinə və müalicə proseslərindən sonra sağlamlığına qovuşublar.

Zəhərlənmə halları arasında dərmandan, sirkə turşusundan, dəm qazından zəhərlənmələri halları üstünlük təşkil edib.

Məlumat üçün bildirilib ki, Toksikologiya şöbəsində zəhərlənmiş qanın təmizlənməsi üçün ən müasir ekstrokorporal metodlardan istifadə edilir. Həmçinin kəskin dəm qazı zəhərlənmələri üçün Barokamera bölməsi də fəaliyyət göstərir.

Şöbə süni tənəffüs aparatları, defebrilyator, EKQ aparatları, təcili yardım arabaları ilə təchiz olunub və sutkanın 24 saatı fəaliyyət göstərir. Reanimasiya otaqlarında 4-ü uşaq çarpayısı olmaqla, dördfunksiyalı 12 çarpayı, monitorlar, infuzomatlar, perfuzorlardan, kəskin böyrək çatışmazlığı halları üçün isə iki yerlik hemodializ və osmos aparatından istifadə edilir.

# Xaricdəki "söyüş makinaları"nın sonu çatır - cinayət işi

## Araşdırmanın nəticəsi olaraq onlara həbs cəzası kəsilə və sonrakı mərhələdə Azərbaycanın tələbi üzrə ekstradisiya edilə bilərlər



**Milli Məclisin mayın 21-də keçirilən iclasında YAP-çı deputat Siyavuş Novruzov xarici ölkələrə sığınaraq Azərbaycanda məmurları təhqir edənlərlə bağlı məsələni gündəmə gətirib. "İstər Milli Şura rəhbərliyi, istər xaricdə oturan blogerlər, digər şəxslər gəlir əldə edirlər. Heç bir siyasi fəaliyyəti olmayan şəxslərə arayış satanlara, həmin şəxslərin xarici ölkələrdə status almasına çalışanlar da araşdırılmalı və cəzalandırılmalıdır. Birisi gəlib Fəvvarələr Meydanında bir şəkil çəkdirir, sonradan o şəkli yayır ki, guya bu mitinq təşkil etmək istəyirmiş, təzyiqlərə məruz qalıb. Bununla da xaricdə status almağa çalışır, təhqirlər yayır. Hamısı maşın alverçiləri, ali təhsili olmayanlar, oğrular yığışıblar ora, Azərbaycana qarşı fəaliyyət göstərirlər" deyə, deputat bildirib. S.Novruzov Milli Koordinatora xitabən bildirib ki, xaricdə oturub təhqiramiz çıxışlar edən şəxslərin də ekstradisiyası ilə ciddi məşğul olmaq lazımdır.**

Bu arada sosial şəbəkələrdə Almaniyada yaşayan müxalifətçilərdən birinin iddiaları diqqət çəkib. Bildirilir ki, "Azərbaycan hakimiyyəti Avropada olan bəzi blogerlərin şantaj yolu ilə məmurlardan pul aldıqları barədə sübutları Almaniya və digər ölkələrin prokurorluqlarına təqdim edib".

"Hətta deyilənə görə, bir bloger şantaj yolu ilə 270 min avro alıb", deyə o əlavə edib. Həmin şəxsin iddiasına görə, iş üzrə aparılan istintaqa ifadə verən bir nəfər də var.

Məlumatlı mənbələrdən azpolitika.info-ya daxil olan məlumata görə, Avropa ölkələrində mühacir həyatı yaşayan, müxtəlif platformalarda Azərbaycanda yüksək rütbəli dövlət rəsmilərini mütəmadi olaraq təhqir edən bir neçə "bloger" sözügedən cinayət əməli törədib. Onlar məmurları və iş adamlarını ailə üzvləri və özləri barədə şəxsi məlumatları yayacaqları ilə hədələyərək, külli miqdarda vəsait əldə ediblər. Daha sonra həmin pullar Avropa ölkələrindəki banklar vasitəsi ilə nağdlaşdırılıb. Avropa İttifaqı qanunvericiliyinə görə vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin bank hesablarına daxil olan vəsaitlərin mənbəyi açıqlanmalıdır. Amma sözügedən "bloqçular" pulları nağdlaşdırıb, yaxud başqa hesablara köçürsələr də, banklara heç bir sənəd təqdim edə bilməyiblər.

Mənbə bildirib ki, onların bir qismi şantajla əldə etdikləri vəsait hesabına daşınmaz əmlak, bahalı avtomobillər əldə edib, eyş-işrətlə məşğul olublar.

Məlumata görə, onların bir qismi yerli hüquq- mühafizə orqanları tərəfindən istintaqa cəlb edilib. Araşdırmanın nəticəsi olaraq onların cinayət işi məhkəməyə göndəriləcək, həbs cəzası kəsilə və sonrakı mərhələdə Azərbaycanın tələbi üzrə ekstradisiya edilə bilərlər.

Demokratiya və İnsan Hüquqlarını Müdafiə Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, xaricdə oturub təkcə hakimiyyətdəki insanların deyil, ayrı-ayrı ictimai-siyasi xadimlərin, incəsənət adamlarının, media təmsilçilərinin ünvanına təhqirlər yağdıran şəxslərin hərəkətləri qanun pozuntusu olmaqla yanaşı, əxlaqi, mənəvi dəyərlərə də ziddir: "Söyüş, təhqir, böhtan yağdırmaları onların cinayət məsuliyyətinə cəlb olunması üçün hüquqi əsaslar yaradır. O baxımdan həmin xaricdəki Azərbaycan vətəndaşları cinayət məsuliyyəti yaradan və əxlaqi dəyərlərdən uzaq olan ifadələrdən çəkinməlidirlər. Əks halda, istənilən an onlara qarşı cinayət işi açılması üçün hüquqi əsasları özləri yaratmış olurlar: "O ki qaldı onların həbs olunub Azərbaycana ekstradisiya edilmələrinə, bu məsələ bir qədər uzun prosesdir. İlk növbədə onlar haqqında cinayət işi qaldırılmalı və yaşadıqları ölkəyə onların cinayət törətdiklərini sübuta yetirən ittiham sənədləri Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təqdim edilməlidir. Və o adamlar barəsində axtarış elan olunmalıdır. Həmin şəxslər saxlanıldıqdan sonra yaşadıqları ölkə ilə Azərbaycan arasında onların ekstradisiyası haqqında danışıqlar başlamalıdır. Danışıqlar nəticəsində Azərbaycan tərəfinin ortaya qoyduğu sübutları həmin dövlət qəbul edəcək və ya etməyəcək, saxlanılan şəxsi təhvil verəcək, yoxsa sərbəst buraxacaq, bu başqa məsələdir. Azərbaycan hüquq-mühafizə orqanları hüquqdan kənar hər hansı hərəkət edə bilməz. Yəni həmin şəxsləri gizli şəkildə saxlayıb ələ keçirib ölkəyə gətirmək kimi addıma gedə bilməzlər. Bu, siyasi skandal yaradar. Ona görə də bu məsələdə emosionallıqla hərəkət etmək olmaz. Həmin söyüşcül şəxslərə qarşı cinayət işi açılsa, ən azı bu addım onları bir qədər çəkindirəcək amil ola bilər".

Hüquq müdafiəçisinin sözlərinə görə, bəzi dövlətlərin özləri bəzən maraqlı olurlar ki, Azərbaycanda hakimiyyət təmsilçilərinə, ictimai-siyasi xadimlərə qarşı kimlərsə hücum etsinlər. Ona görə də söyüş söyən, böhtan yağdıran Azərbaycan vətəndaşlarına bəzi hallarda xüsusi şərait də yaradırlar, onları qoruyurlar.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Ələsgər Məmmədli barədə daha bir məhkəmə qərarı

**Media eksperti, "Toplum TV"-nin həmtəsisçisi Ələsgər Əhmədoğlu (Məmmədli) barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə müdafiə tərəfinin verdiyi vəsatətə baxılıb.**



APA xəbər verir ki, mayın 24-də Xətai Rayon Məhkəməsində hakim Bəxtiyar Məmmədovun sədrliyi ilə keçirilən prosesdə müdafiə tərəfinin verdiyi vəsatət təmin olunmayıb.

Bir gün əvvəl Ələsgər Məmmədli saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasından qardaşına zəng edib. Bu barədə "Amerikanın Səsi"nə onun qardaşı Nəsimi Məmmədli bildirib. "Saxlanma şəraitindən narazılığı olmasa da, səhhətindəki problemin onu getdikcə daha çox narahat etdiyini bildirdi. Təcridxanada ümumi qan analizləri götürülüb və ultrasəs müayinəsi olunarkən orqanizmdə bir sıra mənfi dəyişikliklər təsdiq olunub. Mədəaltı vəzin, qaraciyərin və qalxanvarı vəzin ölçülərində və funksiyasında dəyişiklik var", o qeyd edib.

Nəsimi Məmmədli deyib ki, xüsusilə də qalxanvarı vəzində aşkar olunan 23 mm-lik düyündən iynə biopsiyasının götürülməməsinə görə narahatlığı davam edir.

Onun sözlərinə görə, Ələsgər Məmmədlinin səhhətindəki problemlərə görə Avropa İnsan Haqları Məhkəməsinə müraciət olunub. "Eyni zamanda effektli müalicəsinə özəl klinikalarda başlanılması üçün ev dustaqlığı ilə bağlı vəkillər tərəfindən vəsatət verilib. Əldə olunan tibbi sənədlər də vəsatətə əlavə olunub", Məmmədlinin qardaşı deyib.

Martın 6-da "Toplum TV" internet televiziyasının yerləşdiyi ofisdə və daha bir neçə ünvanda Daxili İşlər Nazirliyi tərəfindən əməliyyat keçirilib. DİN-in yaydığı məlumatda bildirilib ki, paytaxtın Nərimanov rayonu Y.V.Çəmənzəminli ev 98 B ünvanında yerləşən ofisdə və əlavə digər ünvanlarda bir qrup şəxsin fəaliyyəti ilə bağlı daxil olan məlumat üzrə polis əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri keçirilib.

Ələsgər Məmmədli martın 8-də saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsilə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) ittiham irəli sürülüb. Barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, "Toplum TV"nin həmtəsisçisi Akif Qurbanov və əməkdaşları Ramil Babayev, İlkin Əmrahov, Müşfiq Cabarov və Əli Zeynalov barəsində də 4 aylıq həbs qətimkan tədbiri seçilib. Fərid İsmayılov və Elmir Abbasov isə ev dustaqlığına buraxılıb. III Respublika Platformasının qurucu üzvü Ruslan İzzətli barəsində də 4 aylıq həbs qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Dörd kənddən sonra Kərki...

## Azərbaycanın Qazax istiqamətində hərbi-strateji mövqeləri gücləndi, perspektivdə anklavların, həmçinin SSRİ dövründə ermənilərə bağışlanmış ərazilərimizin azad ediləcəyi gözləntisi də var



**Mayın 24-də Qazax rayonunun Aşağı Əskipara, Bağanıs Ayrım, Xeyrımlı və Qızılhacılı kəndləri işğaldan azad olundu, Dövlət Sərhəd Xidməti isə əraziləri nəzarətə götürdü.**

Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin dəqiqləşdirilməsi üzrə komissiyalara baş nazirin müavinləri Şahin Mustafayev və Mger Qriqoryan rəhbərlik edirlər. Şahin Mustafayevin xidməti bildirir ki, Qazax rayonu ərazisində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib, bununla 6,5 kvadrat kilometr ərazinin Azərbaycana qaytarılması mümkün olub. Beləliklə, 44 günlük müharibə, ardınca Qarabağda suverenliyimizin bərpasından sonra Azərbaycan heç bir güzəşt etmədən işğal altında qalan torpaqların azad edilməsi istiqamətində növbəti qələbəni təmin etdi.

Siyasi ekspert Asif Nərimanlı düşünür ki, 4 kəndin azad edilməsinin siyasi-hərbi üstünlükləri də var:

1. Azərbaycan və Ermənistan sərhədinin ilk demarkasiyası həyata keçirildi: bu, Bakı və İrəvanın problemlərini ikitərəfli formatda həll etməsi presedentini yaradır;

2. Azərbaycanın Qazax-Tavuş istiqamətində hərbi-strateji mövqeləri gücləndi: Ermənistanın "güclü" adlandırdıqları şimal müdafiə xətti faktiki olaraq ləğv olundu;

3. Ermənistan-Gürcüstan magistral yolunun bir hissəsi Azərbaycanın nəzarətinə keçdi: alternativ yol inşa etmək məcburiyyətindədirlər;

Və ən mühüm məqam Azərbaycanın Qarabağın azad edilməsindən sonra sərhəd istiqamətində işğalda olan ərazilərin azad edilməsinə nail olmasıdır. Bu, perspektivdə anklavların, həmçinin, SSRİ dövründə ermənilərə bağışlanmış ərazilərimizin ən azı sərhəd boyunca yerləşən hissəsinin azad ediləcəyi gözləntisini də önə çıxarır.

"Ali Baş Komandan İlham Əliyev yanvarın 10-da ilk dəfə bəyan etmişdi ki, Qazaxın işğal altında olan və qeyri-anklav dörd kəndi Azərbaycana qaytarılmalıdır. Ermənistan tərəfi ilə davam edən uzunmüddətli danışıqlardan sonra bu kəndlərin qaytarılması üçün fəaliyyətlərə başlanıldı". Bunu teleqraf.com-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.

Onun sözlərinə görə, delimitasiya prosesindən sonra ərazidə demarkasiya prosesləri həyata keçirilməyə başlayıb: "Aprelin 19-da başlayan demarkasiya prosesi 12,7 km sərhəd xəttini əhatə etdi. Proses mayın 15-də yekunlaşmalı idi. Təxminən bundan 10 gün sonra hər iki tərəfin sərhəd qoşunlarının əraziyə yeridilməsi nəzərdə tutuldu. Verilən son müddət, yəni mayın 25-də başa çatırdı. Görünür, artıq Ermənistanda baş verən etirazlar, erməni kilsəsinin havadarlarının prosesə mane olmaq cəhdləri heç bir nəticə vermədi. Azərbaycan ərazilərini azad etməkdə davam edir. Sevindirici bir haldır ki, Ermənistan tərəfi artıq münaqişə ilə yox, Azərbaycan tərəfinin diplomatik, siyasi tələblərinə adekvat reaksiya verərək işğal altında saxladığı əraziləri bir mərmi atılmadan, bir nəfərin belə burnu qanamadan Azərbaycana qaytarır. Hesab edirəm ki, bu prosesləri müsbət dəyərləndirməliyik. Bu, gələcəkdə iki ölkə arasında etimad mühitinin daha da möhkəmlənməsinə istiqamətlənmiş addım kimi qəbul edilə bilər".

Ekspert bildirib ki, ən problemli məsələlərdən biri məhz Qazax istiqamətində idi: "Kommunikasiyaların açılması məsələsində Ermənistan müsbət rəy versə də, hələki ərazidə real addımları görmürük. Sülh sazişi istiqamətində isə kifayət qədər yol etmişik. Amma yenə də müəyyən müddəalarda ortaq məxrəcə gəlinməyib. Amma hər bir halda ümid edirik ki, Ermənistan öz gücünə, imkanlarına baxaraq üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən kənara çəkilməyəcək. Çünki bu, yenidən münasibətlərin pozulmasına gətirib çıxara bilər. Paşinyan bunu dəfələrlə son aylarda vurğulayıb. Azərbaycan sülh tərəfdarıdır".

Rusiyalı politoloq Sergey Markov da kəndlərin qaytarılmasına münasibət bildirib. "Eynilə Qarabağ kimi. Azərbaycan Qarabağı döyüşlə aldı. Ermənistan sülh yolu ilə dörd kəndi verdi. Amma könüllü yox, Azərbaycanın Qarabağ kimi bu kəndləri güclə alacağı təhlükəsi altında verdi. Bu, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına şərait yaradır" deyə, - o bildirib.

Qeyd edək ki, Sədərəkin Kərki, Qazaxın Barxudarlı, Sofulu, Yuxarı Əskipara kəndləri Ermənistan ərazisi ilə əhatə olunmuş (anklav) vəziyyətdədir.

Ermənistan ərazisinin bir hissəsi - hazırda Gədəbəyin Başkənd kəndinə aid olan torpaqlar Azərbaycanın əlindədir.

Ermənistanda hakimiyyət 34 il əvvəl işğal olunan Kərki kəndini də Azərbaycana qaytarmağa hazırlaşır. Bu barədə "Fakt" saytı yazıb. Sayt qeyd edir ki, Ermənistan Ədliyyə Nazirliyinin Kadastr Komitəsi bu kənddə yaşayan erməniləri "müvəqqəti qeydiyyata" götürüb. Bildirilir ki, bu günlərdə Ədliyyə Nazirliyinin Kadastr Komtəsi Kirants (Tavuşun kəndi) sakinlərinə hüquqi qeydiyyat şəhadətnaməsi verdiyi haqda açıqlama yaydı. Açıqlamada deyilir: "Bildirilməlidir ki, müvafiq hüquqların dövlət qeydiyyatı qeyri-dəqiq məlumatlar əsasında aparılıb. Bu qeydiyyatlar qeyri-dəqiqliyə əsaslandığına görə sözügedən ərazilərin Ermənistan Respublikasının suveren ərazisinin bir hissəsi hesab edildiyini iddia etmək üçün hüquqi əsas ola bilməz".

Bu, faktiki olaraq həmin ərazilərin Azərbaycana təhvil verilməsinin əsaslandırılmasıdır. Ekspertlər hesab edir ki, hakimiyyət gələcəkdə digər ərazilərin Azərbaycana verilməsini də bu yolla əsaslandıra bilər. Nəzərə alsaq ki, Nikol Paşinyan "Tiqranaşen (Kərki) və Tavuşun kəndləri"nin (Qazaxın kəndləri: 4-ü qaytarılıb, 3 anklav qalır-red) Ermənistanın 29800 kvadratkilometr (daha sonra 29,743 olduğu qeyd edildi) ərazisinə daxil olmadığını bəyan edib, o zaman, eyni sertifikatlar Kadastr Komitəsi tərəfindən Tiqranaşen (Kərki) sakinlərinə də "dəqiq olmayan məlumatlar əsasında" verilib.

Demarkasiyanın növbəti mərhələsində buradakı sakinlərə deyiləcək ki, sənədləriniz etibarlı deyil, evlərinizi tərk edin", - sayt yazır.

Qeyd edək ki, işğaldan sonra Ermənistan hökuməti kəndə Tiqranaşen adını verib. Bundan sonra kəndin didərgin düşmüş əhalisini məskunlaşdırmaq üçün Kəngərli rayonunda yeni kənd salınıb. Məcburi köçkünlər Yeni Kərki kəndində məskunlaşıb.

Sabiq maliyyə naziri, iqtisadi və siyasi məsələlər üzrə ekspert Fikrət Yusifov erməni tərəfdə olan hər bir qarış Azərbaycan torpağının geri qaytarılacağını bildirdi: "Ermənistan Sovetlər Birliyi dağıldığı ərəfədə və ondan sonra işğal etdikləri Azərbaycan torpaqlarını geri qaytaracaqlar. Bunun alternativi yoxdur. 44 günlük savaşdan və bir günlük antiterror əməliyyatından sonra ilk dəfə olaraq ermənilər digər torpaqlarımızın da sülh yolu ilə Azərbaycana qaytarılmasına başladılar. Növbəti addım Qazaxın eksklav olan üç kəndinin və Kərki kəndinin geri qaytarılması olacaq.

Bundan sonra isə ermənilər zaman-zaman sərhədlərimiz boyunca, hələ sovetlər dönəmində "səssiz" yağmaladıqları torpaqları geri qaytarmaq zorunda qalacaqlar. Sərhədlərdə aparılan delimitasiya işləri məhz bu məqsədə xidmət edəcəkdir. Sərhədlərin delimitasiya prosesi davam etdikcə, ermənilərin zaman-zaman bizdən nə qədər torpaq oğurladıqları tam üzə çıxacaq.

Bu gün ermənilər Qazaxın dörd kəndini tərk edərkən Ağdamı, Kəlbəcəri və Laçını tərk edərkən oynadıqları oyunları oynadılar. Bütün bunlar bir millətin iç üzünün göstəriciləridir".

Əslən Naxçıvandan olan, AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov o torpaqlar uğrunda tökülən şəhid qanlarını xatırlatdı: "Məlumdur ki, Azərbaycanın ən qədim kəndlərindən olan Kərki Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun inzibati ərazi vahidinə daxildir. 1990-cı il yanvar ayının 15-dən başlayaraq ermənilərin Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirdikləri hücumlar nəticəsində Kərki kəndi işğal altına düşüb. Daha dəqiq desək yanvarın 18-də səhər saat 4 radələrindən saat 18-19-a kimi şiddətli döyüşlərin getdiyi Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə işğal olunub.

Kərkinin və daha sonra yanvarın 19-dan etibarən Sədərəyin müdafiəsi uğrunda gedən döyüşlərdə Məhərrəm Seyidov, Etibar Əhmədov, Məhəmməd Məmmədov, Abbasəli Nəzərəliyev, İdris Məmmədov kimi çoxlu sayda igidlər şəhid olub. Ümumiyyətlə isə 1990-1993-cü illər arasında ermənilərin Sədərəyə hücumları nəticəsində Naxçıvan yüzdən artıq şəhid verib. Allah onlara rəhmət eləsin. Konkret Kərkiyə gəldikdə isə, bu kəndin anklav olması sovet hökumətinin vaxtında Azərbaycan ərazilərinin tədricən qoparılıb Ermənistana verilməsi nəticəsində baş verib. Məlum olduğu kimi SSRİ dönəmində Ermənistana əkin, otlaq yerləri adı altında bir sıra ərazilərimiz verildi və Sədərəklə Kərki kəndi arasındakı ərazinin də 1938-ci ildə Ermənistana məhz bu adla verilməsindən sonra Kərki anklav vəziyyətə düşmüş oldu.

Kərki yerləşdiyi mövqeyə görə strateji əhəmiyyət daşıyır. Belə ki, bu kəndin yenidən Azərbaycanın nəzarəti altına keçməsi, İrəvan-Sünik yolunun tamamilə bizim nəzarətimizə keçməsinə imkan verəcək. İkinci bir tərəfdən, İrəvan-Qafan-Meqri-İran yolu da Kərkidən keçir. Ona görə də ermənilər ekspertlər, hərbçilər və ayrı-ayrı siyasilər vasitəsilə İkinci Qarabağ savaşından sonra anklavlarla bağlı məsələ gündəmə gəldikdə xüsusilə Kərkinin geri qaytarılmasının mümkünsüzlüyünü qabardırdılar. İndi isə Ermənistan Ədliyyə Nazirliyinin Kadastr Komitəsinin bu kənddə yaşayan ermənilərin həmin ərazidə müvəqqəti olaraq qeydə alındığını və onların əlində hər hansı mülkiyyət hüququnu təsdiqləyən sənədin olmadığını deməklə əslində Kərkinin də geri qaytarılacağının anonsunu vermiş oldu.

Hər kəs onsuz da digər anklav kəndlərimiz və əvvəl işğal altında olan ərazilərimiz kimi Kərkidə də ermənilərin qeyri-qanuni məskunlaşdığını bilirdi. Amma indi bunun Ermənistanda rəsmi qurum nümayəndəsi tərəfindən dilə gətirilməsi erməni cəmiyyətini hazırlamaq baxımından önəmlidir".

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Mərkəzi Asiyanın "açar dövləti" - Bakıda imzalanan sənədin sirri

**Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmonun danışıqlarının yekunları ilə bağlı sənədlər paketi imzalandı. Bu razılaşmalar sırasında Azərbaycan və Tacikistan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə də var.**

## Sabiq nazir: "Bu sənəd strateji tərəfdaşların təhlükəsizliyi və müdafiəsi kimi həyati əhəmiyyətli yaxınlaşmanı nəzərdə tutur"

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığında Tacikistan ilə münasibətlər də özünəməxsus rol oynayır. Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlar iki ölkə arasındakı əlaqələrin əsasını təşkil edir.

Azərbaycan Prezidenti 2023-cü ildə dost ölkədə iki dəfə səfərdə olub. Prezident İlham Əliyev ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün Bakıda olub.

Son illər Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əlaqələrin inkişafının yeni mərhələsinə qədəm qoyub. Ölkəmizin dünyada artan nüfuzu sayəsində bir çox dövlətlər Azərbaycanla əməkdaşlığa can atır və onların arasında Mərkəzi Asiya dövlətləri önəmli yer tutur. Son bir il ərzində Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri xüsusilə diqqət çəkir. Bu münasibətlərin inkişaf etməsi isə təkcə Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün deyil, həm də bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıyır. İstər regionda, istərsə də dünyada baş verən geosiyasi proseslər dövlətləri birgə əməkdaşlığa səsləyir. Qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər ölkələrimiz arasında münasibətlərin perspektivlərini müəyyənləşdirir.

Tacikistan Mərkəzi Asiya ölkələri içərisində türk dövləti olmayan, İranla ortaq fars dilini, mədəniyyətini bölüşən yeganə ölkədir. Ona görə də Tacikistan bazarlarındakı və müdafiə sənayesindəki iştirakını gücləndirən İran bu ərazidən Mərkəzi Asiyada ambisiyalarını təmin etmək üçün tramplin kimi istifadə etməkdə maraqlıdır. Çinin də Tacikistanda geniş praktiki təsirləri mövcuddur. Yəni Azərbaycan bu "açar dövlət"lə münasibətləri onsuz da yaxşı olan Çinlə və dövlətlərarası əlaqələrə həmişə ciddi önəm verən İranla da əlavə anlaşmaq imkanları qazana bilər.

Siyasi ekspertlər hesab edir ki, fərqli qütblərdə yerləşən ölkələri təmsil edən rəsmi şəxslərin Azərbaycana səfərlərinin intensivləşdiyi müşahidə olunur. Bu fonda ətraf regionlarda mövcud olan dövlətlərlə təmasların sıxlaşması da diqqət çəkir. Aydın şəkildə görünür ki, dövlətimizin müəllif və ya iştirakçı olduğu beynəlxalq layihələr səmərə verməyə başlayıb. Bu layihələrə qoşulmaq, perspektivdə faydalanmaq istəyi ətrafda yerləşən ölkələri sövq edir ki, Azərbaycanla münasibətləri daha da istiləşdirsinlər. Dövlətimizin strateji mövqeyi, etibarlı tərəfdaş imici, uğurlu siyasəti və bacarıqları onu hər kəs üçün cəlbedici amilə çevirib.

Sabiq maliyyə naziri, professor Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, iki ölkə arasında bir çox sahələrdə əməkdaşlığa dair imzalanan sənədlər içərisində "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" xüsusi diqqət çəkib: "Belə bir sənəd iki ölkə arasında siyasi, iqtisadi, sosial və digər sahələrdə uzunmüddətli qarşılıqlı fəaliyyəti özündə ehtiva edir. Bu, sənəd həm də strateji tərəfdaşların təhlükəsizliyi və müdafiəsi kimi həyati əhəmiyyətli sahələrdə maraqların yaxınlaşmasını nəzərdə tutur. Son illər ərzində, xüsusilə də 44 günlük Qarabağ savaşındakı zəfərdən sonra bir çox ölkələrin Azərbaycanla yaxından əməkdaşlıq etmək istəyi göz qarşısındadır. Bu istəyin kökləri üzərində bir qədər dayanaq. Azərbaycan son 20 ildə regionun ən nüfuzlu ölkələrindən birinə necə çevrildi? Son 20 ildə Azərbaycanın iqtisadiyyatının 4 dəfəyə qədər böyüməsi, Azərbaycan Ordusunun dünyada bənzəri olmayan bir şəkildə, 30 il işğal altında qalmış torpaqları azad etməsi və bu zaman separatizmin kökünü kəsməyin ən yaxşı nümunəsini bütün dünyaya nümayiş etdirməsi, bir dövlət kimi onun nüfuzunu yüksəklərə qaldırdı. Bu gün Azərbaycan yerləşdiyi böyük regionun ən nüfuzlu və böyük siyasi çəkisi olan dövləti statusuna malikdir. Azərbaycan bu gün bu statusla onun üzərinə gələrək, haqsızlıq etmək istəyən Fransa kimi ölkələri siyasət meydanında pat vəziyyətinə sala biləcək bir qüdrətə sahibdir. Bu gün Azərbaycan Turan birliyini yaranmasında qardaş Türkiyə ilə birlikdə böyük uğurlara imza atır. Azərbaycan bu gün Avropanın neft və qaz təchizatının etibarlı tərəfdaşına çevrilib. Azərbaycan bu gün Avropaya yaşıl enerji ixracı kimi Transmilli bir layihəyə start verib.

Bütün bunlar ortadaykən Azərbaycanla hesablaşmamaq mümkün deyil. Bu gün bütün bu uğurların fonunda Qərbdə də, Şərqdə də böyüklüyündən, kiçikliyindən asılı olamayaraq bütün ölkələr Azərbaycanla əməkdaşlığa can atır. Bu gün Azərbaycan bütün dünyada beynəlxalq tədbirlərin keçirildiyi ən yaxşı məkanlardan biri kimi təqdim olunur və ölkəmiz bu tədbirləri bənzəri olmayan bir şəkildə - başqa ölkələrdə keçirildiyindən daha maraqlı və daha səmərəli keçirməyi bacarır. Bu gün hətta böyük dövlətlər arasında münaqişələrin həllinə dair yüksək səviyyədən olan görüşlərin məhz Azərbaycanda keçirilməsi məsləhət bilinir.

Düşünürəm ki, bütün bu sadaladıqlarımızın fonunda, son zamanlar bir çox ölkələrin Azərbaycanla yaxından əməkdaşlığa can atması təbiidir. Belə bir ölkə ilə kim dostluq və əməkdaşlıq etmək istəməz ki...".

Sabiq nazir qeyd etdi ki, strateji tərəfdaşlıq haqqında bəyannamənin ölkələrimiz üçün hansı əhəmiyyət daşıyacağını hər iki Prezidentin səsləndirdiyi fikirlərdən daha aydın görə bilərik. Prezident İlham Əliyev tacikistanlı həmkarı ilə keçirilən görüşü və müzakirələri yüksək qiymətləndirərək dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını bəyan etdi. Verilən açıqlamalardan da aydın olur ki, Tacikistan prezidentinin Bakıya səfəri ölkələr arasında qarşılıqlı əlaqələrin bütün spektrlər üzrə daha sürətlə inkişafına təkan verəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## Qərb MDB ölkələrində "rəngli inqilablar"a çalışır


Aleksandr Bortnikov

**Rusiya Federal Təhqiqatlar Xidmətinin direktoru Aleksandr Bortnikov hesab edir ki, Qərb MDB ölkələrində "rəngli inqilablar" üçün şərait yaratmağa çalışır. Bunu Federal Təhqiqatlar Xidmətinin rəhbəri Bişkekdə birliyə üzv dövlətlərin təhlükəsizlik orqanlarının və xüsusi xidmət orqanlarının rəhbərləri Şurasının iclasında deyib.**

Kəşfiyyat xidmətinin rəhbərinin sözlərinə görə, Qərb mərkəzləri MDB ölkələrində vəziyyətin pisləşdiyi və kütləvi iğtişaşlar baş verəcəyi təqdirdə hakimiyyəti ələ keçirmək üçün "mühacirətdə olan hökumətlər" formalaşdırır. O, Qərb oyunçularını daxili böhranlara şərait yaratmaqda ittiham edib. Bu məqsədlə təsir agentləri, nəzarət edilən müxalifət partiyaları və hərəkatları, qeyri-kommersiya təşkilatları və psevdomüstəqil mediadan istifadə olunur.

Həmçinin, Bortnikovun sözlərinə görə, ABŞ və Böyük Britaniya Rusiyanın tərəfdaşlarına qarşı sanksiyalar adı altında MDB məkanında ticarət və maliyyə əməliyyatları üzərində total nəzarət qurmaq istəyirlər ki, istənilən dövlətin iqtisadiyyatına zərbə vura bilsinlər. MDB ölkələrinə hərbi-siyasi və iqtisadi təzyiqlər və müdafiə sahəsində müxtəlif formatlı əməkdaşlıqların tətbiqi davam edir".

## ABŞ Senatı sərhəd barədə qanununu rədd edib

**ABŞ Senatı ölkənin cənub sərhədinin qorunması üçün daha sərt tədbirləri nəzərdə tutan qanun layihəsini qəbul edə bilməyib. Bu barədə ayna.az-a xarici mediaya istinadən bildirir. Qanun layihəsinin əleyhinə 50 senator səs verib, 43-ü isə dəstəkləyib. Qanunun təsdiqi üçün isə ən azı 60 səs lazımdır.**

ABŞ Prezidenti Co Bayden deyib: "Konqresdəki respublikaçılar sərhədi qorumaq və ya Amerikanın pozulmuş immiqrasiya sistemini düzəltmək fikrində deyillər. Əgər onlar əhəmiyyət versəydilər, tarixin ən sərt sərhəd təhlükəsizliyinə səs verərdilər. Əvəzində bu gün partiya siyasətini ölkəmizin milli təhlükəsizliyindən üstün tuturlar".

"Fox News" xəbər verir ki, qanun layihəsinin hazırlanmasına kömək edən müstəqil senator Kristen Sinema, səsvermədən əvvəl sərhədin hər iki tərəfindəki siyasi teatrı qınayıb, qanun layihəsini arxa çevirdikləri üçün respublikaçıları tənqid edib.

Qeyd edək ki, qanun layihəsinə ilk dəfə fevralda baxılıb və 49 əleyhinə 50 səs lehinə, olmaqla qanun rədd edilib.

**“Biz indi gələcək haqqında danışırıq, oyun bitdi. Cənubi Qafqaz regionunda yeni reallıq yaranıb. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etmək, habelə məcburi köçkün və qaçqınların hüquqlarını müdafiə etmək kimi suveren hüququnu təmin edib”.**

# “...Oyun bitdi”

## Hikmət Hacıyev: “Azərbaycan Ermənistanla mülki sərhəd, normal sərhəd qurmaq niyyətindədir”

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Laçında COP29-la əlaqədar təqdimat mərasimində çıxışı zamanı deyib.

O xatırladıb ki, Azərbaycanın xarici işlər nazirinin sözçüsü olduğu əvvəlki həyatında Azərbaycanın Laçın rayonunun işğalının 26-cı ildönümündə Xarici İşlər Nazirliyi tərəfindən bəyanat verilib.

“Həmin bəyanatda Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, azərbaycanlı məcburi köçkünlərin, o cümlədən Laçın rayonundan olan məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaq hüquqlarının təmin edilməsi və münaqişənin ağır nəticələrinin aradan qaldırılması əsas məqsəd kimi qeyd edilirdi. Azərbaycan münaqişənin tezliklə həlli istiqamətində beynəlxalq səylərin intensivləşdirilməsini dəstəkləməklə yanaşı, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə əsasən, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini bərpa etmək, vətəndaşların pozulmuş hüquqlarını müdafiə etmək prinsiplərini müdafiə edirdi. İndi biz gələcək haqqında danışırıq, oyun bitdi. Cənubi Qafqaz regionunda yeni reallıq yaranıb. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etmək, habelə məcburi köçkün və qaçqınların hüquqlarını müdafiə etmək kimi suveren hüququnu təmin edib. Ancaq bu dağıntıları görəndə bizdə kədər hissi oyadır”, - H.Hacıyev qeyd edib.

O əlavə edib ki, bununla belə bu gün bütün dünya məcburi köçkünlərin, xüsusən də uşaqların öz evlərinə qayıtmasını, Laçının və Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin dirçəlişinin şahidi olur: “Sanki baharın özü Laçında və digər işğal olunmuş ərazilərdə qalan münaqişənin yaralarını sağaltmaq üçün əlavə səylər göstərir. Təbiət bu ecazkar diyarı öz rəngləri ilə mükafatlandırıb, hər künc-bucaq yaşıllıqlarla, çiçəklərlə bəzədilib. Bu gün biz Azərbaycanın COP29 gündəliyinin başqa bir unikallığı olan sülh quruculuğu prosesində də baş verən iqlim fəaliyyətindən danışacağıq. Bu, Ermənistan və Azərbaycan arasında sülh quruculuğu prosesi nəticəsində yaranıb. Laçın şəhərinə aparan yol Ermənistan sərhədinə çox yaxındır. Uzaqdan gördüyümüz Həkəri çayının qarşı tərəfində ermənilərə məxsus dirək və bayraqları görürük. Azərbaycan Ermənistanla mülki sərhəd, normal sərhəd qurmaq niyyətindədir”.




H.Hacıyev deyib ki, iqlim dəyişikliyi ilə mübarizə qlobal təhlükəsizlik məsələsidir. Yeganə davamlı həll qlobal yaşıl və təmiz enerjiyə keçiddir.

Onun sözlərinə görə, bu keçidin tempi çox yavaşdır və dünyanın bir çox müxtəlif yerlərində eyni səviyyədə deyil.

“Dünyada hər kəs 2030-cu ilə qədər bərpa olunan enerji potensialını üç dəfə və enerji səmərəliliyini iki dəfə artırmalıdır. Lakin biz həm də yaşıl enerjini bütün dünyada daha əlverişli və rəqabətqabiliyyətli etməliyik. Biz planetdəki hər kəs üçün qələbə qazanmalıyıq. Öhdəliklər götürülüb, lakin bunlar hazırda kifayət deyil. İqlim diplomatiyasındakı bütün tendensiyalar göstərir ki, biz daha çox iş görməliyik. Real dünyada real dəyişikliyə ehtiyacımız var. Bunun üçün bizə real maliyyə rəqəmləri lazımdır. Gəlin, Azərbaycanın COP29-da sədrliyindən başqa bir gözlənti də əldə edək. Ancaq bu, təkcə maliyyə deyil, bundan da artıqdır və COP gündəliyimizdə bir çox başqa mühüm mövzular var. Hədəflər qoyuruq və onlara çatmaq üçün hazırlaşmalıyıq”, - H.Hacıyev qeyd edib.

❑ **“Yeni Müsavat”**

# “NATO-da deyirdilər ki, kişiliyiniz çatırsa, gedin torpaqlarınızı geri alın”

## Siyavuş Novruzov gözlənilən parlament seçkiləri, referendum və milyoner olması haqda nələr dedi?

**“Referendum yaqin ki, olacaq. Referendumu cənab Prezident təyin edir. Bir də parlament referendumu çağıra bilər. Referendum üçün kifayət qədər məsələlər var. Məsələn, parlament üzvlərinin sayının artırılması, majoritar və proporsional seçki üsulunun bərpası... Yaxud rayon İcra hakimiyyətlərinin statusu konstitusiyada göstərilib, amma yeni strukturlar da formalaşdırılıb. İşğaldan azad olunmuş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında Prezidentin Xüsusi Nümayəndəliyi yaradılıb. Bu layihə özünü doğruldur.**



İndi rayonlarda Prezidentin səlahiyyətli nümayəndəsi, İcra Hakimiyyətinin başçısı və bələdiyyə sədri olmaqla üç struktur mövcuddur. Regionlara iqtisadi zonalar üzrə rəhbərin təyin olunması məsələsi var. Cənab Prezidentin təşəbbüsü ilə Milli Məclisə bələdiyyələrlə bağlı qanun layihəsi daxil oldu, biz onu qəbul etdik. Yalnız 3000 əhalisi və 1000 evdən ibarət olan ərazilərdə bələdiyyələr olacaq. Yerdə qalanların hamısı birləşəcək. 5-7 kənd bir bələdiyyədə olacaq. Bu, idarəetməni yüngülləşdirəcək. Vəsaitlərin toplanıb insanlara xərclənməsinə, sosial layihələrin həyata keçirilməsinə kömək göstərəcək".Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov modern.az-a müsahibəsində belə deyib.

Parlament seçkilərinə gəlincə, deputat deyib ki, bağlı müxtəlif fikirlər var, lakin bununla bağlı rəsmi qərar yoxdur: “Qərar olduqda parlament də məsələ ilə bağlı öz işlərini görəcək”. Namizəd olub-olmayacağına gəlincə, S.Novruzov deyib ki, YAP rəhbərliyi hansı qərarı qəbul edəcəksə, ona uyğun davranacaq: “Konstitusiyaya görə yaşı 18-ə çatmış, 10 ildən artıq Azərbaycanda yaşama istənilən vətəndaş parlament seçkilərində iştirak edə bilər. Parlament seçkilərində ali təhsil tələb olunmur. Bununla yanaşı, bir partiya öhdəliyi də var. Partiya sıralarındansansa, onun qərarlarına da tabe olmalısan. Əgər partiya məsləhət bilmirsə, deməli, sən namizəd kimi seçkidə iştirak etməməlisən”.

“Həm mətbuatda, həm də sosial şəbəkələrdə bildirilir ki, YAP yaşı 60-a çatan şəxslərin deputatlığa namizəd olmasına sədd qoyacaq. Siz necə düşünürsünüz, deputatın yaş məhdudiyyəti olmalıdır” sualına S.Novruzovun cavabı belə oliub: “Dünyanın hər yerində - elə qardaş Türkiyənin özünü götürək, yaşlı insanlara üstünlük verildiyini görərik. Bunu mən deyə bilərəm, çünki hələ 60 yaşım yoxdur. Deyə bilməyəcəklər ki, özünü müdafiə edir. İnsan yaşlaşanda ağlı qaçmır ki, əksinə, daha da müdrikləşir. Azərbaycanda ağsaqqal anlayışı önəmlidir. Bu yaxınlarda Anarın heç bir kitabını oxumayan birisi deyir ki, “Anar getsin, evində ölsün”. Sənin valideynin barədə bir başqası belə desə, xoşuna gələr?

Dünən ortaya çıxan, bir sətir yaza bilməyən, mübtəda ilə xəbərin yerini itirən adamlar Azərbaycanın məşhur bəstəkarlarına, rəssamlarına, alimlərinə yaş iradı tutur. Onlar bu yaşa qədər enişli-yoxuşlu yollar keçiblər, çalışıblar. Ona görə də insanları yaşa görə dəyərləndirmək düzgün deyil. Parlamentdə 70-75 yaşlı elə deputatlar var ki, oradakı gənc həmkarlarından qat-qat səmərəli fəaliyyət göstərir, həm dövlətə, həm seçicilərə, həm də Milli Məclisə xidmət edirlər".

Deputat deyib ki, müxalifətə qarşı sərt açıqlamalarına baxmayaraq, siyasətdə düşmənçilik prinsipindən uzaq olmaq lazımdır: “Amma əvvəllər bəziləri sırf düşmənçilik aparırdı. Halbuki siyasi mübarizə düşmənçilik demək deyil. Məgər bizim aramızda qan davası var? Söhbət əqidə müxalifliyindən gedir. Əfsuslar olsun ki, bəziləri iqtidara yox, dövlətə, xalqa müxalifdir.

Biz torpaqlarımızı işğaldan azad etməklə xəcaləti üzərimizdən götürdük. Xaricdə bizi ələ salırdılar. Bir məclisə gedə bilmirdik. NATO Parlament Assembliyasının üzvüyəm. Axır sözləri belə olmuşdu ki, kişiliyiniz çatırsa, gedin torpaqlarınızı geri alın. İndi NATO-ya başıuca gedirik. Onlar da sakit oturturlar. Allah cənab Prezidentin canını sağ eləsin! Neçə ilin iztirabını canımızdan çıxardı. Bax, bu qələbəni dəstəkləmirsənsə, deməli Azərbaycan xalqı qarşısında danışmağa haqqın yoxdur".

S.Novruzov zamanı olunca dostlarına vaxt ayırdığını deyib:"Müxtəlif yerlərdə - rayonlarda, Bakıda, Moskvada dostlarım var. Kəndə gedəndə zəng edib dostlarla görüşürəm. Bakıda olanlarla da görüşməyə çalışıram. O cümlədən əsgərlik və tələbə yoldaşlarım var, onları da unutmuram. Mən keçmiş deputatların hamısı ilə əlaqə saxlayıram. Sinif yoldaşlarıma birdən gecə də zəng vura bilərəm. Olan-keçənləri yadımıza salır, söhbət edirik. Tələbə yoldaşlarımın çoxu polis, prokurordur. Vaxtilə yataqxanada ən çox yaşayan mən olmuşam. Ziyafət Əsgərovla 8 il yataqxanada bir otaqda qalmışıq. Deyirlər ki, Siyavuş milyonerdi, mülkləri var. 8 il sərasər yataqxanada qalmışam. Bu günümüzə asan gəlib çıxmamışıq".

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024



# Divara hörülən quda

Zamin HACI
zaminhaci@gmail.com

**Keçmiş deputat, el arasında daha çox "şeyxin qudası" və "28 dəfə hacı" kimi tanınan Qalib Salahzadə ilə Sabunçu rayon icra hakimiyyətinin başçısı Adil Vəliyevin toqquşması son günlərimizin ən maraqlı əhvalatlarından biridir. Bilgəh tərəfdə sərhədlərin müəyyənləşməsi, yalan olmasın, Bağanıs Ayrım və Xeyrimlidə dirəklərin basdırılması qədər vacibdir.**

Qalib müəllim Bilgəh bölgəsinin qeyri-rəsmi kralı kimi tanınırdı. Əski zamanlarda orada bələdiyyə sədri-filan da olmuşdu. Hətta Adil müəllim son açıqlamasında belə tragikomik məlumatı da xalqımıza çatdırdı ki, sən demə Qalib müəllim bələdiyyənin həmin möhür-ştampını hələ özündə saxlayırmış. Bəs təzə bələdiyyədə möhür-zad yoxdurmu? Allah bilir. Ədliyyə Nazirliyimizin də bilməsi, yəqin, lazım idi.

Əlbəttə, vaxtilə Xəzərin suyu çox idi, dövlət rəhbərliyinin "130 metrə qədər sahil xalqın malıdır, orda heç zad tikmək olmaz" qərarına da məmurlarımız və sairə korrupsionerlərimiz xəzrinin sovurduğu qum kimi baxırdılar. Uçdu, getdi... Ancaq indi Xəzər geri çəkilir. Sahil enlənir. Qumun tozanağı hələ çoxunun gözünü çıxaracaq.

Bir məsələ də var ki, bəlkə Adil müəllim Qalib müəllimə adil yanaşmır. Məsələn, icra başçısının Qalib müəllimin villasının qapısını hördürməsi xəbərini aldıq. Bu nə deməkdir? Dövlətin belə cəza üsulu, ədalətin bu formada bərpası bizə yaraşırmı? Əgər villa qanunsuzdursa, sök. Qalib müəllimə qanuni cəzası nədirsə, məhkəmə ilə ver. Yoxsa bizdə "divara və ya divarı hörmə" adlı cəza varmı? Mən bilmirəm. Deputatlardan soruşmalıyıq. Mənim bildiyim odur ki, qədim əyyamlarda bəzi padşahlar xoşu gəlməyən tipləri divara hörürdülər. İndi Hacı Qalib qapısı hörülən villanın içində qalıb acından ölsə, bunun dövlətçiliyimizin şan-şöhrətinə xələl gətirməsini zənn etmirsinizmi? Qarşıdan da iqlim konfransı gəlir. Lap əski olsun, bir deputat havasız qalıb, zəhri çatlayıb ölməməlidir.

"Ədalətsizliklə ədaləti bərpa etmək olmaz" - bu, mənim fikrim deyil. Heydər Əliyevin fikridir və məhkəmə binalarımızın dəhlizlərində görmüşəm.

Təbii ki, xalqın çoxunun dəniz qırağını hasarlayanlardan, orda mənbəyi kirli pullarla villa tikənlərdən zəhləsi gedir. Ancaq cəzalandırma "darvazasını hörmək", "üstünə maşın sürmək" kimi formalarda ola bilməz.

Cəza demişkən, dünənki yazımda orta məktəblərimizdəki təhsil prosesinin problemlərindən bəhs etmişdim. Bildiyiniz kimi, artıq müəllimlərə məktəbdə uşaq döymək, qeybət eləmək, disko oxutmaq, siqaret çəkmək qadağan olunub. Bunun təhsilimizə ziyanı böyük olacaqdır. Yaxın illərdə müəllim işləməyə adam tapmayacağıq. Lakin indi mövzuya yenidən qayıtmağımın mənası başqadır. Dünənki yazıdan sonra dostumuz Vüsal Bağırlı belə xatirəsini yazıb göndərmişdir: "Mən orta məktəbdə oxuyanda bir biologiya müəllimimiz vardı. Hər dərsdə yeni, əcaib cəzalar nümayiş etdirirdi. Bir növ manyak idi, hamımız ondan qorxurduq. Bir dəfə odekolonu şagirdin başına töküb, alışqanla yandırmışdı. Uşağın başında tonqal qalamışdı. Güclə söndürdük. İdmanla məşğul olurdu, karateçi idi, yaxşı təpik atırdı. Deyirdi mən Brus Liyəm, Cekki Çanam, Van Dammam. Təpiyi qaldırıb adamın birbaşa təpəsindən vururdu. Bir dəfə yenə vurmaq istəyəndə idmançı sinif yoldaşım vardı, bunun ayağından tutdu. İndi bunun bir ayağı göydə qalıb, o biri yerdə, tullana-tullana qışqırdı ki, ayağımı burax, o.... (burada pedaqoji müraciət forması yazılıb, qəzetdə dərci mümkün deyil - Z.H.), buraxmasan səni minəcəyəm. Şagird də dedi ki, buraxsam da minəcəksən. Bizə də ləzzət eləmişdi, xeyli gülmüşdük".

Gözəl xatirələrdir. Yazını da elə bu xoş ovqatla bitirmək istəyirəm.

**ABŞ Vaşinqtonun İrəvana dəstəyi gücləndirmək üçün hansı addımlar ata biləcəyini müəyyən etməkdən ötrü Ermənistandan gələn "bir sıra sorğuları" nəzərdən keçirir. "Yeni Müsavat" xatırladır ki, bu bəyanatı ABŞ dövlət katibi Entoni Blinken Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələrdə səsləndirib.**



# Blinkenin anonsu: İrəvan ABŞ-dan mühüm cavab gözləyir

## Dövlət katibinin sözlərinə görə, Vaşinqton İrəvana dəstəyi gücləndirmək üçün Ermənistandan gələn "bir sıra sorğuları" nəzərdən keçirir; görünür, Paşinyan ölkəsinin təhlükəsizliyi üçün narahatdır

"Biz Ermənistana dəstəyimizi gücləndirmək üçün başqa nə edə biləcəyimizi müəyyən etməkdən ötrü Ermənistandan gələn bir sıra sorğuları nəzərdən keçiririk" - Amerika diplomatiyasının rəhbəri bildirib. Eyni zamanda, Blinken sorğuların təfərrüatını açıqlamayıb, lakin xatırladıb ki, aprelin əvvəlində Brüsseldə Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen və Ermənistanın baş naziri Nikol Paşinyanla birgə görüşü olub. Amerikanın xarici siyasət idarəsinin rəhbərinin sözlərinə görə, bu məsləhətləşmələr məhz ABŞ və Aİ-nin "Ermənistanı dəstəkləmək üçün daha nə edə biləcəyini" öyrənmək üçün aparılıb. "Və biz bir sıra müxtəlif sahələrdə irəliləyəcəyik"- deyə, Blinken əlavə edib.

Yada salaq ki, həftənin əvvəlində Nikol Paşinyan ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktor müavini Devid Koenin başçılıq etdiyi nümayəndə heyəti ilə İrəvanda görüşüb. Müzakirələrin təfərrüatı açıqlanmayıb.

Sözügedən Brüssel görüşündən qayıdandan sonra Paşinyan Qərbin Ermənistanın təhlükəsizliyinə zəmanət verə bilməyəcəyini bəyan edib. İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində fəaliyyətini dondurub. Putinlə Paşinyanın Kremldəki son görüşündən sonra İrəvanın ABŞ-a sorğular göndərməsi də diqqət çəkir. Paşinyan o görüşdən sonra açıq anti-Rusiya ritorikasından demək olar ki, imtina edib. Belə ehtimal etmək olar ki, İrəvan ABŞ-dan təhlükəsizliyi üçün dəqiq cavab istəyir. Çünki baş nazir əvvəllər də deyib ki, Ermənistan təhlükəsizliyin təminatında yeni müttəfiqlər axtarışındadır. O, bu məsələdə Rusiyaya güvənmədiklərini açıq şəkildə bəyan edib. Hərçənd, Ermənistanın İran və Türkiyə ilə sərhədlərini rus hərbçiləri qoruyur. Amma görünən budur ki, İrəvan ABŞ-dan bu məsələdə ciddi nəticələr almaq istəyindədir. Bəs, bu sorğular nədən ibarətdir? ABŞ Ermənistanın müraciətini necə qiymətləndirəcək?

"Yeni Müsavat"a danışan REAL Partiyasının Siyasi Komitəsinin üzvü Natiq Cəfərli hesab edir ki, Ermənistanın Rusiyadan iqtisadi asılılığı həddindən artıq yüksəkdir, xüsusən də enerji asılılığı var. Onun fikrincə, Ermənistanın ABŞ-a sorğuları bu asılılığı azaltmaq yönündə məsləhətləşmələr aparılması ola bilər: "Çünki Rusiya Ermənistanı cəzalandıracaq qərarlar verə bilər. Ermənistan neft məhsullarını və qazı Rusiyadan alır, qazın cəmi 15 faizini İrandan alır, o da sənaye müəssisələrinin şəbəkəsinə çatmır, qaz idxalında 85 faiz yeri Rusiya tutur. Neft məhsullarının isə 90 faizini Rusiyadan alırlar. Ona görə də bu məsələ ilə bağlı Vaşinqtonla İrəvan birgə müzakirələr apara bilər". N.Cəfərli təhlükəsizliyin qarantiyası rolunda ABŞ-ın hansısa addım ata biləcəyini istisna edir: "Amerika təhlükəsizlik sahəsində nəsə edə bilməz. Hazırda Ermənistan KTMT üzvü olaraq qalır, Türkiyə və İran sərhədlərində rus hərbçilərin olması son görüşdə razılaşdırıldı, Gümrüdə 102-ci baza yerləşir... Yeni ABŞ təhlükəsizlik sahəsində diplomatik bir iş görə bilər, praktik addım ata bilməz. Əsas məsələ Rusiyadan olan iqtisadi, enerji daşıyıcıları asılılığını azaltmaqla bağlı müraciətdir. Amma Ermənistanı da bu vəziyyətdən çıxara biləcək yeganə ölkə Azərbaycandır. Fikrimcə, bu məsələ ABŞ-Azərbaycan danışıqlarında müzakirə oluna bilər. Xatırlayırsınızsa, bir neçə həftə əvvəl Ermənistan rəsmiləri Azərbaycandan təbii qaz ala biləcəklərinin anonsu vermişdilər..."

Hərbi ekspert Telman Qasımovun sözlərinə görə, ABŞ bir neçə dəfə Ermənistanın təhlükəsizliyinə qarant ola biləcəyini dilə gətirib. Onun sözlərinə görə, ABŞ-dan İrəvana son səfərlər isə İranla əlaqədar görünür: "Çünki Azərbaycanla bağlı məsələlər həllini tapıb. Vaşinqton da maraqlıdır ki, sülh müqaviləsi imzalansın, amma öz paketi ilə. Hətta delimitasiya prosesini alqışladılar. Ona görə burada Rusiya və İran məsələləri qalır". T.Qasımovun fikrincə, Ermənistanda hərbi ocaqlar var idi və rus qoşunları yerləşmişdi: "Onların çıxarılması ilə bağlı ABŞ-Ermənistan danışıqları gedə bilər. Yəni ruslar Tavuşdan çıxdılar, Zəngəzur və Gümrüdən də çıxdıqca, Amerika Ermənistana dəmir dəbilqə, çadırlar verə, bu ad altında regionda möhkəmlənməsini sürətləndirə bilər. Hazırda rus hərbi kontigentinin İran- Ermənistan sərhədindən geri çəkilməsi istənilir. Bununla həmin sərhədin ABŞ-ın nəzarətinə keçməsi nəzərdə tutulur. Vaşinqton istəyir ki, Zəngəzur dəhlizi açılarsa rusların yox, amerikalıların kontrolu olsun".

Siyasi ekspert Ramiyə Məmmədovanın fikrincə, Ermənistan ABŞ-dan daha ciddi siyasi-iqtisadi dəstək proqramları istəyir. Onun sözlərinə görə, Paşinyan kabinetinin müraciətinə təhlükəsizlik sahəsində strateji dəstək verilməsi istəyi ola bilər: "Amerikalı hərbçilərə keçirilən təlimlər, ABŞ ordusunun Avropadakı komandanı ilə görüşlər, aprelin 5-də keçirilən Brüssel görüşündə ayrılan maliyyə dəstəyi Ermənistanı həvəsləndirib. ABŞ Ermənistanda Rusiyanın təsirlərinin azaldılması üçün çırmanıb, amma buna tam nail olmaq mümkün deyil. Çünki Ermənistan həm iqtisadi, həm təhlükəsizlik sahəsində Rusiyadan asılı vəziyyətdədir. Amerika gəlib bu regionda Ermənistan üçün nə edə bilər? Əgər Paşinyanın praqmatizmi varsa, Zelenski və Saakaşvili nümunələrindən ibrət götürüb Rusiya ilə gərginliyi tam sıfırlamalıdır". Təhlilçi əks təqdirdə İrəvan - Moskva münasibətlərinin pisləşməsindən Ermənistanın zərər görəcəyini düşünür: "Rusiya heç nə itirmir. Onsuz da nəzarət və təzyiq mexanizmləri ni əlində saxlayıb. Amma davamlı gərgin əlaqələr Ermənistan iqtisadiyyatına zərər vurur. O baxımdan Ermənistan ABŞ-la yaxınlaşma siyasətində Rusiya amilini həmişə nəzərə almağa məcburdur".

**Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Bəzi dövlətlər Minsk Qrupundan çıxa bilər

## Aydın Quliyev: "Gözləyirəm ki, Belarus Minsk Qrupu konfransına ev sahibliyi eləyən ölkə statusundan imtina edəcək"

**Azərbaycan ATƏT-in Minsk Qrupunun rəsmi buraxılması tələbini son bir ayda daha ardıcıl şəkildə qoyub. Lakin hələ ki, ATƏT rəhbərliyindən gərəkən addım atılmır.**

Xatırladaq ki, 1992-ci ildə Azərbaycanla Ermənistan, o zaman ATƏM adlandırılan ATƏT-ə üzv qəbul edilərkən iki ölkə arasında konfliktin aradan qaldırılması üçün Minskdə konfrans keçirmək qərara alındı. Lakin həmin qərarın ardınca Ermənistan Azərbaycanın digər ərazilərini də işğal etməyə başladığına görə konfrans baş tutmadı. O zamandan bəri də həmin qrupa üzv olan dövlətlər heç zaman bir yerə yığışmayıblar. Sadəcə olaraq, Minsk Qrupuna həmsədrlik edənlərin mandatı təsdiqlənib. Azərbaycan öz gücünə münaqişəni həll etdiyi üçün ATƏT təsisatlarının uzun illər heç bir nəticə verməyən fəaliyyətinə də ehtiyac yoxdur. Ermənistanın sülh danışıqlarına həmsədrləri cəlb etmək cəhdləri alınmadı.

O səbəbdən ATƏT Minsk Qrupunu və ona bağlı qurumların ləğvi haqda mümkün qədər tez qərar verməlidir. Çünki nə problem var, nə də onunla məşğul olmağa ehtiyac.

Siyasi şərhçi Aydın Quliyev "Yeni Müsavat"a bildirib ki, əslində ATƏT rəhbərliyi Minsk Qrupunu 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatan kimi dərhal buraxmalı idi. Çünki BMT-nin mandatı altında o zamankı Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün təsis edilmiş və missiyasını yerinə yetirməmiş bir təsisatı saxlamağın mənası yox idi: "Müharibə bitəndən sonra 2021-ci ilin yanvarında da Azərbaycan Prezidenti ATƏT-in Minsk Qrupunun iki həmsədr ölkəsinin nümayəndəsini qəbul edərkən çox açıq mövqeyini ortaya qoydu, Qarabağ məsələsinin artıq Azərbaycanın öz gücü ilə həll edildiyini və bundan sonra onlara ehtiyac qalmadığını bildirmişdi. Bu sözlərdən sonra ATƏT-in rəhbərliyi təəssüf ki, Minsk Qrupunu indiyə qədər buraxmayıb. Ona görə də Bakı məsələni son zamanlar daha tələbkar formada qaldırmaqda haqlıdır. Əslində heç bir hüquqi, siyasi əsası olmayan Minsk Qrupunun rəsmi qaydada buraxılmaması ATƏT-in özünə hörmət gətirmir. Çünki dünyada ATƏT-ə qarşı hətta bəzən ittihamçı tonda suallar yaranmağına səbəb olur. Sual verilir ki, əgər münaqişənin həll olunmasında heç bir rolun olmadısa, münaqişəni Azərbaycan özü gücü ilə həll etdisə, artıq ölü bir qurumu formal olaraq saxlamaqda məqsədiniz nədir? ATƏT Minsk Qrupunu bu günə qədər ləğv etməyibsə bu, onun bölgədə gedən proseslərlə bağlı arxa və gizli niyyətlərinin olduğu barədə nəticəyə gəlməyə əsas vermirmi? Bütün bunlardan ATƏT rəhbərliyi nəticə çıxarmalıdır. Nəzərə almalıdırlar ki, Minsk Qrupunun hələ də saxlanması bölgədə gedən proseslərə qarşı təxribatdır. O mənada təxribatdır ki, xüsusilə Minsk Qrupunun hüquqi qaydada ləğv olunmaması Ermənistanda bütün revanşist dairələrə ilham verir. Onlar düşünürlər ki, Minsk Qrupu indiyə qədər rəsmi buraxılmayıbsa, deməli, Azərbaycanla Ermənistan arasında "Dağlıq Qarabağ münaqişəsi" guya həll




olunmayıb, guya Azərbaycan-Ermənistan sülh prosesi lazımi nəticəni verməyəcək və guya Azərbaycanla Ermənistan arasında yenidən müharibə vəziyyəti yaranacaq və bu zaman Minsk Qrupu kimi bir vasitəçiyə yenidən ehtiyac əmələ gələcək. Minsk Qrupunun saxlanması bölgədə təxribatlar üçün ideya mənbəyi rolunu oynayır. Eyni zamanda Minsk Qrupunun rəsmən buraxılmaması bəzi dövlətlərə hələ də onun adından sui-istifadə eləmək, manipulyasiya imkanı verir. Ermənistanın özündə, media orqanlarında "ATƏT-in Minsk Qrupunun həmsədrləri, Fransadan olan həmsədri" kimi ifadələrə rast gəlirik. Hansı ki, münaqişə yoxdursa ATƏT-in Minsk Qrupunda hansı həmsədrdən söhbət gedə bilər?! Əlbəttə, bütün bunlar Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə izafi və ziyanlı müdaxilədən başqa bir şey deyil".

A.Quliyevin sözlərinə görə, ATƏT rəhbərliyi Minsk Qrupunu rəsmi olaraq buraxmaq barədə ciddi şəkildə düşünməli və gərəkən qərarı qəbul etməlidir. Oturub gözləməli deyillər ki, Azərbaycanın ardınca digər ölkələr də ard-arda bəyanat verib Minsk Qrupundan çıxsınlar: "Mən gözləyirəm ki, ilk növbədə Belarus prezidenti Aleksandr Lukaşenko Minsk Qrupu konfransına ev sahibliyi eləyən ölkə statusundan yaxın zamanlarda imtina edəcək. Eləcə də Türkiyə, Çexiya, Slovakiya və digər ölkələr bəyanatlar səsləndirəcək. Nə qədər ki, ATƏT-in nüfuzuna böyük zərbə olacaq bu addımlar atılmayıb ATƏT rəhbərliyi Azərbaycanın çağırışına məsuliyyətli yanaşmalı, qərar verməlidir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Mehriban düşmənçilik" davam edəcək, yoxsa...

## "Al-Monitor": "Rəisi və onun xarici işlər nazirini kimin əvəz etməsindən asılı olmayaraq, düşmən olan iki dövlətin əlaqə xətləri açıq qalacaq"



**İran prezidenti İbrahim Rəisi və xarici işlər naziri Hüseyn Əmir Abdullahianın ölkənin dağlıq şimal-qərbində helikopter qəzasında həlak olmasından bir neçə gün əvvəl, İran bölgədəki gərginliyi azaltmaq üçün ABŞ rəsmiləri ilə gizli dolayı danışıqlar aparmaq üçün Omana yüksək səviyyəli nümayəndə heyəti göndərib.**

Reyting.az xəbər verir ki, bu barədə "Al-Monitor" yazıb.

ABŞ nəşrinin təhlilində deyilir ki, Rəisi və onun xarici işlər nazirini kimin əvəz etməsindən asılı olmayaraq, uzun müddətdir düşmən olan iki dövlətin əlaqə xətləri açıq qalacaq: "İranın Birləşmiş Millətlər Təşkilatındakı Nümayəndəliyinin özü də danışıqları təsdiq edən bəyanatda dediyi kimi, danışıqlar "birinci deyil və sonuncu da olmayacaq".

Karnegi Beynəlxalq Sülh Fondunun baş elmi işçisi Suzanne DiMaggio deyib ki, İran daxilində mövcud liderlik boşluğu "onsuz da gərgin mühitə daha bir qeyri-müəyyənlik ələvə edib". Lakin Tehran və Vaşinqton onları birbaşa hərbi qarşıdurmaya sürükləyə biləcək regional hücumları ört-basdır etməyə həvəslidir:

"Bayden administrasiyası noyabr seçkiləri ərəfəsində Tehranla böhrandan qaçmaq istəyir. 85 yaşlı Ayətullah Əli Xamenei üçün ən aktual məsələ öz lider varisini hazırlamaq və hakimiyyətin ona rəvan keçməsini təmin etməkdir".

İran və ABŞ arasında 1980-ci ildən diplomatik əlaqələr yoxdur. Onlar, ilk növbədə, Körfəz dövləti Oman və Tehranda ABŞ-ın maraqlarını təmsil edən İsveçrə səfirliyi də daxil olmaqla, vasitəçilər üzərindən əlaqə saxlayırlar.

Bazar günü ölən Əmir Abdullahian bundan əvvəl "Al-Monitor"-a verdiyi müsahibədə israr edib ki, İran Qəzza müharibəsindən qaynaqlanan daha geniş regional münaqişədə maraqlı olmadığını çatdırmaq üçün bu arxa kanallardan istifadə edir.

Son danışıqlar Bayden administrasiyasının keçən il iranlıların Ukraynada istifadə üçün Rusiyaya pilotsuz təyyarələr verməsi, uranın zənginləşdirilməsini sürətləndirməsi və Qəzza zolağında HƏMAS, Livandakı "Hizbullah" və Yəməndə husilər də daxil olmaqla, regional milislərə dəstək verməsi ilə artan gərginliyi idarə etmək səylərinin bir hissəsidir.

Təhlilçilər İbrahim Rəisinin əvəzlənməsi ilə status-kvonun davam edəcəyini gözləyirlər. "Bütün əsas qərarlar Ali Rəhbər Ayətullah Əli Xamenei tərəfindən verilir, bu o deməkdir ki, prezidentin kim olmasından asılı olmayaraq, xarici və daxili siyasət eyni trayektoriyada davam edəcək", - Atlantika Şurasının İran məsələləri üzrə ixtisaslaşmış qeyri-rezident baş əməkdaşı Holli Daqres deyib.

İran Konstitusiyanın tələb etdiyi kimi, iyunun 28-də seçkilər keçirəcək və o vaxta qədər vitse-prezident Məhəmməd Müxbir prezident vəzifəsini icra edəcək. Keçən həftə ABŞ-la dolayısı danışıqlarda iştirak edən veteran nüvə müzakirəçisi Əli Baqeri Kəni xarici işlər nazirinin səlahiyyətlərini icra edən təyin edilib.

Prezidentliyə namizədlər Xameneinin nəzarətində olan Nəzarətçilər Şurası tərəfindən ciddi yoxlama prosesinə məruz qalacaqlar. Keçmiş parlament spikeri Əli Laricani də daxil olmaqla, mümkün namizədlərin əvvəlki seçki dövrlərində iştirakdan kənarlaşdırıldığı üçün bəzi yeni adlar səslənib.

Xamenei İranda son qərar verən şəxs olaraq qalır, lakin yeni prezidentin seçilməsi namizədlərdən asılı olaraq bəzi incə dəyişikliklərlə nəticələnə bilər.

"Mərkəzçilərin və islahatçıların namizədliyini irəli sürməsinə və qalib gəlməsinə icazə verilsə, bu, çox güman ki, İranın Çin, Qlobal Cənub və İranın yaxın qonşuluğu ilə münasibətlərin yaxşılaşdırılmasına diqqətini dəyişməyəcək, - Kuinsi İnstitutunun icraçı direktoru Trita Parsi deyib. - Lakin son bir neçə ildə şahidi olduğumuz Qərblə münasibətlərin əhəmiyyətli dərəcədə prioritetləşdirilməsi yumşala bilər".

Keçmiş prokuror, insan haqlarının pozulması ilə bağlı rekorda imza atmış Rəisi tarixən aşağı seçici fəallığının müşahidə olunduğu 2021-ci ilin iyununda keçirilən mübahisəli seçkilərdə böyük fərqlə qalib gəlib. O, 2015-ci ildə nüvə razılaşmasına gətirib çıxaran danışıqlar yolu ilə İranı Qərbə açan İran teokratiyasında nisbətən mötədil olan Həsən Ruhanini əvəz edib.

Tramp administrasiyası İslam Respublikasına qarşı cəzalandırıcı iqtisadi sanksiyaları bərpa etməzdən əvvəl 2018-ci ildə sazişdən çıxıb. Paktı bərpa edə bilməyən Bayden administrasiyası keçən il gərginliyi azaltmaq və bir neçə həbsdə olan amerikalının azadlığını təmin etmək üçün qeyri-rəsmi razılaşma əldə etdi.

Rəisinin vəzifədə olduğu müddətdə İranın Çin və Rusiya ilə əlaqələrinin dərinləşməsi, nüvə yanacağının bomba səviyyəsində zənginləşdirilməsi və 2022-ci ilin sentyabrından başlayaraq hökumət əleyhinə etirazların qanlı şəkildə dağıdılması müşahidə edilib. Çünki o, çökmüş iqtisadiyyatdan İsraillə kölgə müharibəsinə qədər müxtəlif çətinliklərlə üzləşir.

Milli Təhlükəsizlik Şurasının keçmiş baş direktoru Maykl Sinq bildirib: "Əminəm ki, Bayden administrasiyası rejimin tutmaq istədiyi istiqamətə dair işarələri oxumaq üçün artıq müxtəlif rejim personajları arasında bunlarla bu cür jokeylərə baxacaq".

**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Şeyxə yaslarla bağlı fətva çağırışı

## Ekspertlərə görə, bu cür adətləri inzibati qaydada ləğv eləmək mümkün deyil, ona görə də...

**“Türkiyənin İzmir şəhərində yas mərasimində yemək verilmə adətinin ləğvi barədə xəbəri eşitdik. Bu haqda həmişə düşünmüşəm, lakin çəkinmişəm ki, toylarda, yaslarda israfçılığın aradan qaldırılması barədə təkliflər versəm, bu, insan hüquqlarının pozulması kimi qiymətləndirilə bilər.**

Ona görə də bu haqda həmişə ehtiyatla söz demişəm. İndi isə dövlət orqanlarına deyil, şəxsən Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadəyə müraciət etmək istəyirəm ki, belə bir qərar qəbul etsinlər, yas mərasimlərində yemək vermək adəti yığışdırılsın. Bu, bahalıq şəraitində yaxını vəfat etmiş insanlara həddən artıq böyük yükdür. İnsanlara çox çətinliklər yaradır. Bilmirlər, dəfnlə məşğul olsunlar, yoxsa camaata yemək versinlər”. Bu sözləri pravda.az-a açıqlamasında Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli deyib. “Ümumiyyətlə, ehsana qarşı deyiləm. Kim ehsan vermək istəyirsə, müəyyən yerlərdə verə bilər. İmkanı olan şəxslər hansısa kəndə yol çəkilməsini həyata keçirə, yaxud qəbiristanlıq yolunu düzəldə, abadlıq işləri apara, kimsəsizlər evinə yardımlar edə bilərlər. Bəlkə, bu, vəfat edənin ruhu üçün daha xoş olar. Xahiş edirəm, bu təklifimə baxsınlar. Azərbaycanda yas mərasimlərində yemək vermək adətinin aradan qaldırılması barədə fətva versinlər”, - deputat bildirib.



Qeyd edək ki, hələ 2014-cü ildə Azərbaycanda “ehsan qadağası” tətbiq edilməyə başlamışdı. Belə ki, yas mərasimlərində israfçı süfrələrin qarşısının alınması üçün 2014-cü ilin avqustunda ilk dəfə hökumət bütün ölkə boyu mübarizəyə başladı, ehsan süfrələrinin açılmaması tövsiyə olundu. Hətta bəzi yerlərdə qadağaya riayət edilməməsi ilə əlaqədar sərt tədbirlərə əl atıldı. Bir müddət bu sahədə normal durum yaransa da, sonradan ənənəvi vəziyyət bərpa olunmağa başladı.

Bəzi yerlərdə məsələlər həllini tapdı. Məsələn, Naxçıvanın Mahmudkənd və Culfa rayonunun Camaldın kəndinin sakinləri yas mərasimlərində yemək verilməsini dayandırıblar.

Bunu israfçılıq hesab edən kənd sakinləri Camaldın kəndində yas mərasimlərində yalnız çay süfrəsi olacağını bildiriblər.

Eləcə də ötən il Şəki rayonunun Şirinbulaq kənd camaatının ümumi qərarı ilə bundan sonra yas mərasimlərində yemək verilməyəcəyi açıqlanmışdı. Həmçinin Şəkinin Böyük Dəhnə, Kiçik Dəhnə və Oxud kəndlərində də artıq yaslarda yemək verilməsi adətinin tədricən aradan qalxdığını bildirimişdilər.

Millət vəkili Ceyhun Məmmədov mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. Millət vəkili qeyd edib ki, məsələ ilə bağlı müxtəlif istiqamətlərdə işlərin həyata keçirilməsinə ehtiyac var: “Əslində bu məsələ uzun müddətdir ki, Azərbaycan cəmiyyətində müzakirə olunur. Mən də dəfələrlə bu mövzunu mediada səsləndirmişəm. Hesab edirəm ki, bu məsələ ilə bağlı müxtəlif istiqamətlərdə işlərin həyata keçirilməsinə ehtiyac var.

Əslində Qafqaz Müsəlmanları İdarəsinin yas yerlərində israfçılıqla bağlı çağırışları olub. Burada cəmiyyətin də üzərinə ciddi vəzifə düşür. Burada iki istiqamətdə iş getməlidir. Birincisi, ya biz cəmiyyət olaraq bu məsələlərdə fəal iştirak etməliyik, Qafqaz Müsəlmanları İdarəsi də bu prosesdə fəallıq göstərməlidir, ya da məsələ qanunvericilik formasında tənzimlənməlidir. Bu gün cəmiyyətin böyük bir hissəsi bu məsələdən əziyyət çəkir, israfçılıqla üz-üzədir. Bu yalnız bir istiqamətdə deyil, bir neçə istiqamətdə özünü açıq-aydın göstərir. Bu baxımdan, biz bu məsələyə ciddi yanaşmalıyıq və düşünürəm ki, iki yoldan birini seçməliyik.

Bununla bağlı fətva da verilə bilər. Amma hesab edirəm ki, təkcə fətvanın verilməsi vəziyyətdən çıxış yolu deyil. Qeyd etdiyimiz məqamlar, məsələlər hər biri ciddi şəkildə və dəqiqliklə nəzərə alınmalıdır".

Dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu isə mövzuya bu cür şərh bildirib: “Azərbaycanda uzun illər əvvəl bəzi bölgələrdə yas mərasimində yemək ləğv olunub. 2014-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə üzrə yeməkli ehsan süfrələrinin qadağan edilməsi kampaniyası başlayıb. Ancaq müəyyən zamandan sonra bəzi rayonlarında yenə bərpa olunub. Bu, dini məsələ deyil. Dində dəfn qaydaları müəyyən olunur. Ehsan süfrələri isə belə demək olarsa, xalq adətidir. İnsanlar dünyasını dəyişənin adına süfrə açıb, başsağlığı üçün gələn insanlara adət olaraq yedirib yola salıb. Ancaq zamanla bu adət bütün digər adət-ənənələrimiz kimi məqsədini aşıb, israf elementləri müşahidə olunub. Bunu aradan qaldırmaq üçün ilk növbədə maarifləndirmə işləri aparılmalıdır. Məcburən, inzibati qaydada bu cür adətləri ləğv eləmək mümkün deyil. Üstəlik, tamamilə ləğv eləmək də mümkün deyil, çünki qonağa süfrə açmaq adətdəndir. Bunu insanlara qadağan eləmək olmur. Sadəcə, israfçılıq aradan qaldırılmalıdır. Dediyim kimi, bunu yalnız maarifləndirmə işləri ilə etmək olar”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Bu gün Bakıda iməcilik var - sovet ənənəsi, yoxsa...

## Deputat və tanınmış şəxslər BŞİH-nin bugünkü tədbirinə dəstək verdilər



**Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən şəhərin sanitar təmizlik səviyyəsinin daha da yüksəldilməsi, mövcud yaşıllıqlara qulluq göstərilməsi məqsədi ilə bu gün- may ayının 25-də paytaxtda genişmiqyaslı daxili ümumşəhər iməciliyinin keçirilməsi qərara alınıb. Bu barədə Bakı Şəhər İcra Hakimiyyəti məlumat yayıb.**

Bakı Şəhər İcra Hakimiyyəti paytaxt sakinlərini, müəssisə, idarə və təşkilatların kollektivlərini, həmçinin sahibkar və özəl sektorda çalışanları bu iməclikdə fəal iştirak etməyə çağırır. “Bununla da hər birimiz paytaxtımızın daha da gözəlləşməsinə öz töhfəmizi vermiş olacağıq” deyə, məlumatda bildirilir.

İməcilik MDB ölkələri arasında sovet dönəmindən qalmış, kapitalist ölkələrinə xas olmayan bir ənənədir. İməcilik sözünün mənası öz istəyi ilə istirahət günlərində təmizlik, abadlıq işləri aparmaq deməkdir. Naxçıvanda Vasif Talıbov hakimiyyəti illərində hər həftənin istirahət günləri iməciliklər keçirilib. Naxçıvan Ali Məclisinin rəsmi səhifəsində verilən məlumata görə, hər həftə 50 minə yaxın “könüllü” bu iməciliklərdə iştirak edib. Təmizlik işləri görmək üçün hər idarə və müəssisə üçün xüsusi ərazi təyin olunub. Hər kəs öz ərazisinə görə məsuliyyət daşıyıb. Vasif Talıbovun bu zorla keçirdiyi iməciliklər zaman-zaman həm mediada, həm də ictimai müzakirələrdə ciddi tənqid hədəfinə çevrilib. Əlbəttə ki, hər bir sakin öz yaşadığı ərazidə səliqəli və təmiz olmasını istəyir. Amma bunu iməcilik şüarı altında etmək heç də birmənalı qarşılanmır.

Deputat Fazil Mustafa bu cür iməciliklərin keçirilməsinin faydalı olduğunu qeyd edib: “Bəzən insanlarda belə bir fikir yaranır ki, ümumiyyətlə şəhərin təmizliyi, bununla bağlı məsuliyyət dövlət qurumlarının üzərinə düşür. Hesab edirəm ki, bu məsələdə insanlar müəyyən dərəcədə ictimai fəallığa cəlb etmək lazımdır. Sosialist qaydalar bir qədər fərqli idi, bunu müxtəlif formalarda edirdilər. Hazırda bir və yaxud üç aydan bir belə bir tədbirin keçirilməsinin ziyanı yoxdur. Hesab edirəm ki, şəhərin təmizliyi üçün cəmiyyətimizin bu mövzuya həssaslığını artırmaq lazımdır. Yəni 2-3 saatlıq iməcilik ilə insanın taleyində nə isə mənfi mənada dəyişməyəcək. Əksinə, vətəndaşlarımızın ağacəkmə kampaniyasında iştirak etməsi, təmizlik tədbirlərinə qoşulması çox müsbət tendensiyadır. Ona görə də biz bu məsələni normal şəkildə dəyərləndirməliyik”.

Sosioloq Əhməd Qəşəmoğlu da iməcilik tədbirlərinin tərəfdarı olduğunu deyib:"Anlaya bilmirəm ki, insanlar iməcilik adından niyə qorxur. Axı insanları aparıb, kiminsə həyətində işlətmirlər, bu iməcilik şəhərimiz üçündür.

Beləliklə, mən iməcilik tədbirlərinin tərəfdarıyam. Bəlkə də bunun üçün maarifləndirmə işi aparmalıdır. Bəzi insanlar bu məsələni birmənalı qarşılamır. İndi elə bir dövr yaranıb ki, insanların əksəriyyətində natamamlıq kompleksi artıb. Yəni kim nə edirsə, mütləq ona irad tutmağı özünün müsbət xüsusiyyəti kimi baxır. Beləliklə, çox istəyərdim ki, hər kəs bu cür tədbirlərdə iştirak etsin. Burada heç bir pis iş yoxdur. Mən də yaşımın bu vaxtında əlimdən gələni etməyə hazıram".

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov isə iməciliyin sosializmə aid olması düşüncəsini yanlış hesab edir.

Xatırladım ki, bir neçə il bundan əvvəl Vaşinqtonda ABŞ-ın vitse-prezidenti öz həyətinin qabağından qarı təmizləmədiyinə görə cərimələnmişdi. Çünki o vaxt bələdiyyə qərar qəbul etmişdi ki, bələdiyyə və kommunal işçilər 1 metrdən çox yağan qarı təmizləyə bilmədiyinə görə bütün vətəndaşlar öz evinin qarşısındakı səkiləri təmizləməli idilər. Vitse-prezident də bunu etməmişdi, ona görə o cəzalandırılmışdı. İməcilik, təmizlik hər gün olmalıdır, nəinki icra hakimiyyətinin şüarı ilə hansısa şənbə və yaxud bazar günləri. Gəlin Bakının vəziyyətinə baxaq, dövlət qurur, tikir, parklar salır, amma həyətlər, küçələr, səkilər xoşagələn vəziyyətdə deyil. Küçələrdə, səkilərdə, parklarda çeynənilib atılan saqqızlara, siqaret kötüklərinə, tum qabıqlarına rast gəlirik. Həmçinin məişət tullantılarını binalardan birbaşa həyətə atan vətəndaşlarımız var. Məgər bu şəhər bizim deyil? Bu küçələrdə, səkilərdə düşmənlər yaşayır? Doğrudur, şəhərin mərkəzi demək olar ki, hər zaman təmiz və səliqəlidir. Amma şəhərin kənar yerlərində bu cür təmizliyə az hallarda rast gəlirik.

Sovet dövründə iməcilik məsələsində məcburiyyət var idi. Bəlkə də indi də insanları məcbur etmək lazımdır ki, yaşadıqları ərazini səliqəyə salsınlar.

Beləliklə, çox arzu edərdim ki, insanlarımız Bakı Şəhər İcra Hakimiyyətinin çağırışına səs verib, gedib iməciliklərdə iştirak etsinlər".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

**Qazaxın 4 kəndinin qaytarılması qərarından sonra (artıq tam olaraq qaytarılıb) Ermənistan hökuməti Tavuş vilayətinin Kirantsa kəndinə aparan alternativ yol və körpü çəkməyə qərar verib. Hətta hökumət təhlükəsizlik məqsədilə Azərbaycanla sərhəddə divar çəkəcəyini vəd edir. Bu məsələ kənd sakinlərini sakitləşdirmək istəyən Ermənistan rəhbərliyi tərəfindən bir neçə dəfə səsləndirilib. Qeyd edək ki, Kirants sakinləri Ermənistanın ərazi və infrastruktur naziri Qnel Sanosyanla görüşdə divarın tikilməsi təklifinə etiraz etsələr də, sonradan buna razılıq veriblər. Tavuş vilayətinin qubernatoru da belə bir vəd verib.**



# Dəyişməyən erməni zehniyyəti - sərhəddə divar...

## Sərhəddə divarların çəkilməsi nəqliyyat yollarının açılmasına mane ola bilər

Yada salaq ki, işğal illərində Ermənistanda dəfələrlə belə təkliflər səslənib. Bu təkliflərdə bildirilirdi ki, Azərbaycan ilə sərhəddə hətta Böyük Çin səddinə bənzər divarı tikməlidir. Erməni zehniyyəti düşünürdü ki, 750-800 km uzunluğunda olacaq bu divar onlara dinclik verəcək.

Ermənistanın Azərbaycanla sərhəddə divar tikmək təklifini yenidən səsləndirməsinin delimitasiya və demarkasiya prosesinə mane olacağını söyləmək olmaz. Çünki Ermənistan hökuməti bu prosesi sərhədlərin müəyyənləşməsindən sonra həyata keçirmək istəyir. Lakin Ermənistan tərəfindən sözügedən addımın atılması iki xalq arasında dinc qonşu kimi yaşamağın perspektivini şübhə altına alır, ermənilərin azərbaycanlılarla dinc yanaşı yaşamaq prinsipini qəbul etməyə hələ hazır olmadığını göstərir.

Cebhe.info şərhində yazır ki, Ermənistanın Qazax rayonu ilə sərhəddə divar tikmək planı bu düşüncə tərzinin ermənilərin alt şüurunda qalmaqda davam etdiyini təsdiqləyir. “Əslində, öz sərhədlərinin toxunulmazlığını təmin etmək üçün Azərbaycan da analoji qaydada divar çəkə bilər. Ancaq iki ölkə arasında təhlükəsizliyin təminatı üçün ən yaxşı vasitə kimi sülh müqaviləsi üzrə götürülmüş öhdəliklər çıxış edə bilər”, deyə bildirilir.

Deputat Kamran Bayramov erməni zehniyyətinin dəyişmədiyini söylədi: “Dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksək səviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas istiqamətləridir. Ancaq Ermənistanın Azərbaycanla sərhəddə divar tikmək təklifinin yenidən səsləndirməsi erməni zehniyyətinin illərdir dəyişmədiyinin göstəricisidir. Ötən ilin sentyabrında ölkəmiz öz ərazi bütövlüyünü, suverenliyini tam şəkildə bərpa etdi. 44 günlük Vətən müharibəsi sona çatdıqdan sonra Azərbaycan Ermənistanla sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü və baza prinsiplərini, sülh sazişinin layihəsini hazırladı. Bəzi dövlətlər Ermənistana dəstək verərək Cənubi Qafqazda qalıcı sülhü əngəlləməyə çalışsalar da, hazırda iki ölkə arasında vasitəçilərsiz danışıqlar gedir və bu danışıqlar təkliflərin layihəsi üzərində aparılır. İndi biz müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi başlayıb. Eyni zamanda, digər bir razılaşmaya əsasən, onlar delimitasiya prosesində 1991-ci il Almatı Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər”.

Deputat diqqətə çatdırıb ki, əldə edilən razılaşmaların nəticəsində aprelin 23-də ilk sərhəd dirəyi quraşdırıldı: “Artıq quraşdırılan dirəklərin sayı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında artaraq 40-a çatıb. Bu da o deməkdir ki, 2 ildir davam edən delimitasiya-demarkasiya məsələsi üzrə keçirilən görüşlər artıq öz müsbət nəticələrini verir. Ermənistanın Azərbaycanla sərhəddə divar tikmək təklifini yenidən səsləndirməsinin delimitasiya və demarkasiya prosesinə mane olacağını söyləmək olmaz. Çünki Ermənistan hökuməti bu prosesi sərhədlərin müəyyənləşməsindən sonra həyata keçirmək istəyir. Lakin Ermənistan tərəfindən sözügedən addımın atılması iki xalq arasında dinc qonşu kimi yaşamağın perspektivini şübhə altına alır, ermənilərin azərbaycanlılarla dinc yanaşı yaşamaq prinsipini qəbul etməyə hələ hazır olmadığını göstərir.

Ancaq Ermənistandan fərqli olaraq Azərbaycan gələcəkdə Ermənistana sərhədi bağlamağın deyil, kommunikasiyaların açılması üçün beynəlxalq hüquqa uyğun olaraq delimitasiya və demarkasiya etməyi təklif edir. Sərhəddə divarların çəkilməsi isə nəqliyyat yollarının açılmasına mane ola bilər. Göründüyü kimi, Ermənistanın və Avropadakı havadarlarının süni ara qarışdırmasına baxmayaraq rəsmi Bakı bütün görüş və toplantılarda sülh çağırışlarına sadiqliyini nümayiş etdirir".

Hərbi analitik Səxavət Məmməd Azərbaycan təcrübəsində divar çəkmə prosesinin vaxtı ilə aparıldığını bildirdi: “Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılmasından sonra müxtəlif iddialar ortaya atılıb. Onlardan biri də divarın çəkilməsidir. İki ölkə arasında sülh müqaviləsi bağlanmasa, həmin ərazidə nə ermənilər, nə də azərbaycanlılar yaşaya bilər. Kəndlər bir-birinə o qədər yaxındır ki, orada sərhəd xidməti də doğru-düzgün fəaliyyət göstərə bilməz. Bunun üçün həm erməni tərəfdən, həm də Azərbaycan tərəfdən evlər sökülməli, kəndlər bir-birindən uzaqlaşdırılmalıdır. Digər anlayışı işğal faktının qarşısını ala bilməz. Divar yalnız təhlükəsizlik və sərhədin qorunması üçün çəkilə bilər. Bunun analogiyaları dünyada mövcuddur. Misal üçün ABŞ Meksika arasında sərhəd. Hətta Türkiyə ilə İran arasında da divarın çəkilməsi yönündə iddialar var. Bu iki misal daha çox qaçaqmalçılıq, miqrantların qarşısının alınması ilə bağlıdır. İsraillə Qəzza arasında da divar çəkilmişdi. Ancaq HƏMAS qısa zamanda divarları yarıb, İsrailin bir neçə şəhərini iflic edə bilmişdi. Azərbaycan təcrübəsində də divarın çəkilməsi prosesi olub. Ağdam rayonunun Çıraqlı kənd əhalisinin atıcı silahlardan qorunması üçün təmas xətti istiqamətində divar çəkilmişdi. Divar çəkiləne qədər Çıraqlıda bir neçə nəfər atıcı silahlardan açılan atəş nəticəsində həlak olmuşdu, yaralananlar olmuşdu. Ancaq divardan sonra ən azı atıcı silahlardan atəş nəticəsində problem yaşanmamışdı. Sözügedən kəndlər istiqamətində divardan sərhəd çəkilməsi mümkün variantdır. Hesab edirəm ki, sülh müqaviləsi mütləq şəkildə lazımdır. Əgər iki ölkə arasında sülh olmasa, o istiqamətdə yaşayış mümkün olmayacaq. Yalnız divar çəkilərsə, bu mümkün görünə bilər. Divarın çəkilməsi ən son variantdır”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**



# Rusiya Ermənistandakı səfirini geri çağırdı

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Moskvaya çağırılıb.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarova deyib.

O, səfirin məsləhətləşmələr üçün çağırıldığını bildirib. Qərarın səbəbi açıqlanmayıb. Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan ad çəkmədən 2 KTMT üzvü olan ölkəni ittiham etmişdi. “Mən bizə qarşı müharibə hazırlayan ən azı iki KTMT ölkəsini tanıyıram. Bu ölkələr bizə kömək etmək istəyi imitasiyasını yaradıblar”, - o bildirib. Qeyd edək ki, KTMT-yə Rusiya, Qazaxıstan, Belarus, Ermənistan, Qırğızıstan və Tacikistan daxildir.

Paşinyan, həmçinin Ermənistanda çevrilişə cəhd hazırladıqlarını da bəyan etmişdi. Zaxarova Paşinyanın Rusiyanı nəzərdə tutduğunu deyərək onu sərt tənqid edib.



# İtaliyanın baş prokuroru Azərbaycanda

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**

Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları səmimi salamlayan baş prokuror Prezident İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın siyasi iradələri sayəsində ölkələrimiz arasında tarixən mövcud olan əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb. Kamran Əliyev prokurorluq orqanlarının rəqəmsallaşması və bu sahədə aparılan islahatlara toxunaraq, müasir tələblərə cavab verən “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti barədə danışıb.

Səfərə dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən Luici Salvato ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnun olduğunu bildirib. Qonaq prokurorluq orqanlarımız arasında əlaqələrin qurulmasında maraqlı olduqlarını qeyd edib. Luici Salvato ölkələrimizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalar çərçivəsində cinayətkarlığa qarşı mübarizədə hüquq mühafizə orqanlarımız arasında əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayıb.

İtaliyanın baş prokuroru Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının insan hüquq və azadlıqlarının qorunması, demokratiya və qanunun aliyininin təminatı olduğunu bildirib.

Daha sonra baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında memorandumu imzalayıblar.

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024



# Parlamentdə pensiyalarla bağlı mübahisələr

## Deputatlar gender bərabərliyinin təmin edilməsi haqqında hesabatı təsdiqlədi

**Mayın 24-də Milli Məclisin növbəti iclası spiker Sahibə Qafarovanın rəhbərliyi ilə keçirildi. Cari məsələlər zamanı çıxış edən deputat Ceyhun Məmmədov diqqəti Ermənistanda davam edən ictimai-siyasi gərginliyə yönəltdi. "Bugünkü gərginliyin əsas körükçüsü isə Baqrat Qalstanyan adında din dəllalıdır. Ayın 26-da o yenidən "izdihamlı" mitinqlər təşkil etməyi planlaşdırır. Hər birimizə məlum olduğu kimi, tarix boyu azərbaycanlılarla ermənilərin dinc şəraitdə yaşamasına mane olan əsas qurumlardan biri də erməni kilsəsi olub. Kilsə bu gün də eyni siyasəti davam edir", - C.Məmmədov bildirdi.**

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təmsil olunduğu Qazax rayonunun 4 kəndinin Azərbaycanın nəzarətinə qaytarılması ilə bağlı danışdı. Bildirdi ki, bu gün Qazax istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhədçilərimiz fəaliyyətə başlayıb. Komitə rəhbəri dedi ki, bununla bağlı ən böyük təşəkkür Prezident İlham Əliyevə düşür: "Prezident İlham Əliyev dünyaya yeni düstur gətirir. Prezident sülhü necə bərpa etmək lazım olduğunu nümayiş etdirir. Ona görə ən böyük təşəkkür Prezident İlham Əliyevə düşür. Bu gün bizim qürur günümüzdür".

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçildi.

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023-cü ildə fəaliyyəti haqqında məlumatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqdim etdi. Bildirdi ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin illik məlumatı "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 20-ci maddəsinə əsasən hazırlanıb və ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı görülmüş işləri və əvvəlki illərlə müqayisədə irəliləyişlərin dinamikasını özündə əks etdirir. Komitə sədri illik məlumatın 150 səhifədən ibarət olduğunu və məlumatların Dövlət Statistika Komitəsinin göstəriciləri əsasında hazırlandığını diqqətə çatdırdı. Bildirdi ki, hesabat dövründə qadınların əməyi qadağan olunan peşə və iş yerləri azaldılıb. Qanunvericiliyə əsasən, cinsi ayrı?seçkiliyin aradan qaldırılması məqsədilə qadınların əməyi qadağan olunan 674 peşə (vəzifə) və iş yeri azaldılaraq 204 müəyyən edilib.

Müzakirələrdən sonra illik hesabat yekdilliklə qəbul olundu.

Daha sonra bir sıra qanunlara dəyişikliklər üçüncü oxunuşda təsdiqləndi.

"Əmək pensiyaları haqqında" qanuna dəyişiklik edilməsi ilə bağlı layihəni Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim etdi. Bildirdi ki, qanunun 5 maddəsinə 17 dəyişiklik və 1 keçid müddəası təklif edilir: "Məlum olduğu kimi "Əmək pensiyaları haqqında" qanunun 20-ci maddəsinin təsir dairəsinə düşən şəxslərə Qulluq stajına görə əmək pensiyasına əlavələr nəzərdə tutulur. Bu şəxsləri şərti olaraq 3 kateqoriyaya ayıra bilərik:

1-ci kateqoriya. Dövlət qulluqçuları və pensiya təyinatı zamanı onlara bərabər tutulan şəxslər (hakimlər və prokurorlar)

2-ci kateqoriya. Hərbi qulluqçular və onlara bərabər tutulan şəxslər (polis, DTX, gömrük xidməti)

3-cü kateqoriya. 1 səlahiyyət dövrünə görə qulluq əlavəsi almaq hüququ olan şəxslər (deputatlar, MSK üzvləri, Hesablama Palatası üzvləri, Ombusman)".

Komitə rəhbəri qeyd etdi ki, hazırda təklif olunan dəyişikliklərin mahiyyəti bu Qanunun müvafiq maddələrinin təsiri altına düşən şəxslərin pensiya təyinatı aparılarkən yuxarıdakı qaydanın tətbiqinə hüquqi baza yaratmaqla pensiya təminatlarını sığorta pensiyası prinsiplərinə uyğunlaşdırmaqdan ibarətdir: "Belə ki, 1 səlahiyyət dövrünə görə qulluq əlavəsi almaq hüququ olan şəxslər nə vaxt pensiya yaşına çatmalarından asılı olmayaraq, onlara həmin vaxt fəaliyyətdə olan müvafiq səlahiyyətli şəxsin aldığı əmək haqqına görə pensiya hesablanacaq. Yəni, bu qrupdan olan şəxslər növbəti dönəmdə vəzifəyə seçilmədikdə, yaxud təyin edilmədikdə yeni təsis olunan əlavələr onların pensiyası hesablanarkən nəzərə alınmayacaq. Başqa sözlə, hər kəsin pensiyası sonrakı artımlar da nəzərə alınmaqla, onun qazandığı məvacibə uyğun olaraq hesablanacaq".

Deputat, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev qanun layihəsi barədə fikirlərini bölüşdü: "Müzakirə olunan məsələ ilə bağlı onu qeyd eləmək istəyirəm ki, bizə təqdim olunmuş arayışda qeyd olunur ki, "mövcud qanunvericilikdə bir səlahiyyət dövrünə görə, qulluq əlavəsi almaq hüququ olan şəxslər də sonradan əlavə edilən əlavə və pensiya təyinatında nəzərə alınır. Bu yanaşma şəxsin vaxtilə işləyərkən almadığı məvacibə görə, haqsız pensiya əldə etməsinə səbəb olmaqla pensiya sığorta sisteminin fəlsəfəsi ilə ziddiyyət təşkil edir". Bəs görək hüququn fəlsəfəsi nə deyir? Hüquq fəlsəfəsi deyir ki, o hüququn mahiyyətini öyrənir və qanunla bağlı bu suallara aydınlıq gətirir. Qanunun məqsədi nədir, hansı əxlaqi və siyasi nəzəriyyələr onun əsasını təşkil edir və.s kimi suallara cavab verir. Hüquq fəlsəfəsinə görə qanunlar ən yaxşı nəticələr əldə edilməsi üçün hazırlanmalı, ictimai əxlaqla pislənməməli, ədalətli olması və başqalarının hüquqlarını müdafiə etmək xarakteri daşımalıdır. Təbii, əxlaqi hüquq nəzəriyyəsinə görə, ədalətsiz qanun həqiqi qanun deyil. Hüquq düşüncəsi də qeyd edir ki, cəmiyyətin hüquqa dair emosiya və təsəvvürləri mütləq normayaratma fəaliyyətində nəzərə alınmalıdır. Azərbaycan Respublikasında konstitusiyanın 7-ci maddəsində qeyd olunur ki, Azərbaycan dövləti dövlət hakimiyyətlərinin bölünməsi prinsipi əsasında fəaliyyət göstərir. Konstitusiyanın 149-cu maddəsində qeyd olunur ki, Normativ hüquqi aktlar hüquqa, haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Normativ Hüquqi Aktlar haqqında konstitusiya qanununun 8-ci maddəsində qeyd olunur ki, Normayaratma fəaliyyətinin əsas prinsiplərindən biri mütənasiblik prinsipidir. Konstitusiyanın 71-ci maddəsində onun izahı verilir ki, mütənasiblik nədir". Deputat bildirdi ki, yeni hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən göstərilən nəticəyə mütənasib olmalıdır: "Bizim dövlətimizin məqsədi nədir? Konstitusiyanın 12-ci maddəsində qeyd olunur ki, Dövlətin ali məqsədi vətəndaşların layiqli həyat səviyyəsinin təmin etməkdir. Belə olduğu halda bizim yeni yaradacağımız norma dövlətin ali məqsədinə cavab verir yoxsa yox?"

Milli Məclisin sədri Sahibə Qafarova iclasda yekun nitq söylədi. Bildirdi ki, 4 gündən sonra may ayının 28-də ölkəmizdə Müstəqillik Günü qeyd ediləcək: "106 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynamışdır. Bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərirdi".

Sahibə Qafarova bildirib ki, xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa edib: "Təəssüf ki, o vaxtkı ölkə rəhbərliyinin qeyri-peşəkarlığı nəticəsində Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüşdü. Müstəqil dövlətçiliyin itirilməsi təhlükəsi tam real idi. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi, Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu. Ümummilli Liderimizin inkişaf strategiyasını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirmişdir. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində əldə edilən möhtəşəm qələbələr nəticəsində erməni işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açıb, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişib".

Spiker daha sonra bildirdi: "Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən ölkələri sırasında yerini daha da möhkəmləndirəcək.

Hörmətli həmkarlar, təklif edirəm, Müstəqillik Günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və gələcəyi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq".

Spikerin təklifini deputatlar alqışlarla qarşıladılar.

Yekunda S.Qafarova deputatlara və media mənsublarına təbrikini də çatdırdı: "Hörmətli həmkarlar, Müstəqillik Günü münasibəti ilə mən sizin hər birinizi səmimi qəlbdən təbrik edirəm! Hamınıza möhkəm cansağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram. Eyni zamanda, mən burada həmişə bizi müşayiət edən media nümayəndələrini də ürəkdən təbrik edirəm".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

**Unun qiymətində bahalaşma əhali arasında tez-liklə digər məhsullarda da qiymət artımı ola biləcəyi haqda iddiaları artırıb. Bildirilir ki, aprel ayında 50 kiloqramlıq unun qiyməti 25 manat 5 qəpik təşkil edib. Bu ay isə qiymət 27 manat 35 qəpiyə qədər artıb. Səbəbi isə Rusiyada buğdanın qiymətinin bahalaşması ilə əlaqələndirilib.**

# Ciddi bahalaşma olacağı xəbərləri - inanaq, inanmayaq?

## Ekspert: "Əgər Azərbaycan idxaldan asılılığı azaltmasa, biz kəskin bahalaşmanın şahidi olacağıq"



Xatırladaq ki, 2023-cü ilin oktyabr-noyabr ayında Azərbaycanda topdansatış mərkəzlərində satılan 50 kiloqramlıq un kisəsinin qiymətində 1 manata yaxın artım olub. Azərbaycanda unun topdansatışı ilə 23 şirkət və bir fərdi sahibkar məşğul olur. Əksər satış mərkəzlərində qiymət artımı qeydə alınmışdı. Ən yüksək artım Xızı rayonunun Giləzi qəsəbəsində yerləşən fiziki şəxs İsgəndər Mirzəyevə məxsus topdansatış mərkəzində olub. Avqust ayının sonunda burada satılan 50 kiloqramlıq un kisəsinin topdansatış qiyməti 26 manat 10 qəpik olduğu halda, oktyabr ayının əvvəlində 27 manat 25 qəpiyə qaldırılıb. Bundan başqa "Dəvəçi-Dəyirman" MMC, "Dəvəçi-Taxıl" MMC, "Şəmkir Un-Yem" MMC və "Sünbül 2012" MMC-yə məxsus topdansatış mərkəzlərində 50 kiloqramlıq un kisəsinin qiyməti son bir ayda 1 manat artıb.

Daha bir məqam isə, unun qiymətinin bahalaşması ilə çörəyin qiymətində də artımın olacağı ilə bağlıdır. Halbuki unun qiyməti ötən aylarda xeyli ucuzlaşdığı vaxtlarda biz çörəyin qiymətində də azalmanı görmədik. Qeyd etmək yerinə düşər ki, 2024-cü ilin yanvar ayında Azərbaycanda buğda ununun 1 kq-nın orta satış qiyməti 1,49AZN təşkil edib. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bu əvvəlki ilin yanvar ayı ilə müqayisədə 0,09AZN və ya 5% ucuzdur. Bununla yanaşı yerli istehsal olan buğda ununun 1 kq-nın qiyməti 1,29AZN təşkil edib ki, bu da illik fərqlə 0,05AZN və ya 4% bahadır. Xaricdən gətirilmiş buğda ununun1 kq-nı isə 1,72AZN təşkil edib. Bu da 2023-cü illə müqayisədə 0,05AZN və ya 3% çoxdur. Məlumat üçün bildirək ki, 2023-cü ilin yanvar ayında 1 kq buğda ununun orta qiyməti 1,58 manat təşkil edib. Yerli düyünün qiyməti 1,34AZN, buğda ununun qiyməti isə 1,77AZN olub.

Azərbaycan Texniki Universitetinin İnnovativ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri, professor Elşad Məmmədov mediaya açıqlamasında unun qiymətindəki bahalaşmanı dünya iqtisadiyyatında baş verən proseslərlə əlaqələndirib və dünya iqtisadiyyatındakı problemlərin daha da dərinləşəcəyini deyib: "Bir tərəfdən maliyyə sektoru ilə real istehsal sektoru arasında problemlər, uyğunsuzluqlar daha da artır, digər tərəfdən isə ölkələr arasındakı iqtisadi və geosiyasi ziddiyyətlər kritik dərəcədə böyüyür. Bütün bunlar da qiymət amilinə öz təsirini göstərir. Biz yaxın aylarda dünya bazarında qiymətlərin pul-kredit siyasətinin sərtləşməsi hesabına bir qədər sabit saxlanmasına baxmayaraq, kəskin bahalaşmanın şahidi olacağıq. Bu da qlobal və regional bazarlarda qiymət artımına səbəb olacaq. Əgər Azərbaycan idxaldan asılılığı azaltmasa, bu bahalaşma ölkə iqtisadiyyatına öz təsirini göstərəcək. Biz kəskin bahalaşmanın şahidi olacağıq. Bunun qarşısını almaq üçün dövlət yerli istehsala daha çox sərmayə yatırmalı, kənd təsərrüfatı sektorunun inkişafı maksimum şəkildə təmin edilməli və regional iqtisadi əməkdaşlıq çərçivəsində zəngin resurs bazasına malik olan qonşu ölkələrlə iqtisadi əməkdaşlıq dərinləşdirilməlidir. Bütün bunlara nail olsaq, qiymət artımı ölkənin istehlak bazarına kritik dərəcədə təsir etməz".

Xaricdən asılılığı azaltmaq üçün nəçə il vaxt lazımdır? Ümumiyyətlə, bahalaşma gözləntiləri nə dərəcə labüddür? Nəzərə alsaq ki, rəsmi qurumlar Azərbaycanda yaxın bir ildə inflyasiyanın aşağı olacağını proqnozlaşdırırlar. Bəs o zaman deyilənlər reallığı əks etdirirmi?

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı-ekspert Eldəniz Əmirov deyib ki, 50 kq-lıq unun qiyməti 25 manat 5 qəpikdən 27 manat 35 qəpiyə qədər artıbsa, bu 2 manat 30 qəpiklik bir artım deməkdir: "Bu isə hər 1 kq un üçün 4,6 qəpiklik qiymətin artmasıdır. Bu zaman 500 qramlıq hər çörəyə 2-3 qəpik artım payı düşür. Odur ki, 50 kq-lıq unun 2,3 manat artmasının hazırda çörəyin qiymətinə təsir etməyəcəyini demək olar. Amma bir məsələ var ki, çörək istehsalçıları çörəyin qiymətini nəzarət səbəbindən qaldıra bilməsələr də, hər çörəkdə 2 qəpik itirməmək üçün, çörəyin çəkisini 20 qram azalda bilərlər. Ona görə ki, hazırkı qiymətlərlə hər 10 qram çörəyin satış qiyməti təxminən 1 qəpikdir. Odur ki, 2 qəpik itirmək istəməyənlər 20 qram kəsmək sevdasına düşə bilər".

Ekspert çıxış yollarından da bəhs edib: "Azərbaycanda kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin həcmini, torpağın keyfiyyətini, taxıl əkin sahələrinin həcmini və yetişdirilə bilən buğdanın keyfiyyət göstəricilərini, eləcə də artan əhali sayını nəzərə alsaq, deyə bilərik ki, biz demək olar ki, hər zaman ərzaqlıq buğdanın böyük hissəsini hansısa ölkədən idxal edəcəyik. Bu isə unun qiymətində bu cür artıb-azalmaları qaçılmaz edəcəkdir. Ona görə də çörəyin qiyməti dövlət tərəfindən müxtəlif alətlərin köməyi ilə tənzimlənir və hər kəs üçün onun əlçatan olması təmin edilir".

İqtisadçı millət vəkili Vüqar Bayramov da bahalaşma ilə bağlı öz sosial media hesabından fikrini izah edib: "Bu ilin ilk 4 ayında pərakəndə ticarət şəbəkəsində 17,0 milyard manatlıq mal satılıb. Bunun 9,6 milyard manatı ərzaq məhsulları, içkilər və tütün məmulatları, 7,4 milyard manatı isə qeyri-ərzaq malları olub. Həmin müddətdə ərzaq məhsullarının alınmasına 8 milyard 693 milyon manat xərclənib. Bu dövrdə alıcıların xərclədiyi vəsaitin 51,2 faizi ərzaq məhsullarının, 5,2 faizi içkilər və tütün məmulatlarının, 13,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 4,4 faizi elektrik malları və mebellərin, 2,4 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,3 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Göründüyü kimi, ümumi xərcləmədə ərzaq məhsullarının payı yüksək olaraq qalmaqdadır. Bu o deməkdir ki, vətəndaşlar xərclədikləri hər 100 manatın 51 manatını, yəni yarıdan çoxunu ərzağın alınmasına yönəldiblər.

Ərzaq məhsullarına daha çox pulun xərclənməsi ənənəvi tələblə bağlı olsa da, son 2 ildəki inflyasiya səviyyəsi də təsirsiz deyil. İstənilən məhsul üzrə xərcləmələrdə tələb ilə yanaşı, istehlak bazarındakı qiymət səviyyəsi də əsas faktorlardandır. Ərzaq məhsullarının daha çox xərc payına malik olması yığım imkanlarını da məhdudlaşdırır".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Yay gəlməmiş hotellərdə qiymətlər dəyişdi

## Gürcüstanda üçulduzlu hotelə getmək, təbii ki, Azərbaycanda beşulduzlu hotelə getməkdən yaxşıdır, amma...




**Yay mövsümünün yaxınlaşması ilə turizm sektorunda canlanma yaranıb. Havaların isinməsi ilə istirahət üçün bölgələrə də üz tutanların sayında artım müşahidə olunur. Bəs bu axın ölkədə fəaliyyət göstərən hotellərin qiymətinə necə təsir göstərəcək?**

Turizm üzrə ekspert Rəhman Quliyev iqtisadiyyat.az-a açıqlamasında deyib ki, Azərbaycanın regionlarında fəaliyyət göstərən hotellər və turizm kompleksləri tam şəkildə yay mövsümünə hazırdır.

Onun sözlərinə görə, ölkəyə gələn turistlər regionlara səfər etməkdə maraqlıdırlar: "Təbii ki, hər kəs səyahət planladığı zaman hava proqnozlarını da öncədən izləyir. İkinci məqam isə qiymət və yerləşmədir. Qiymətlər hotellərin yerləşməsinə, kateqoriyasına görə dəyişir. Hər il olduğu kimi bu il də müvafiq olaraq Azərbaycanın ən ucqar regionlarında belə fəaliyyət göstərən hotel kompleksləri həftə sonları doluluq səviyyəsini 80-100%-ə qədər yerinə yetirir. Həftə içi isə bu göstəricilər 50-60% civarında dəyişir. Bu gün yerləşmədə heç bir çətinlik, problem yoxdur. Regionlarda yol infrastrukturunun da ən yüksək səviyyədə, beynəlxalq standartlara uyğun düzəlməsi turistlərin regionlara axın etməsinə, mütəmadi gedib-gəlməsinə şərait yaradır".

Hotellərdə mövcud qiymətlərdən söz açan ekspert bildirib ki, ötən illərə nisbətən bu sahə üzrə cüzi artım müşahidə olunur. O, bu artımın birbaşa olaraq servis və göstərilən xidmətlərə uyğun olaraq formalaşdığını söyləyib:

"Ümumiyyətlə, artıq insanlar keyfiyyətə daha çox üstünlük verirlər. Əlbəttə ki, turistlər ucuza deyil, keyfiyyətə qaçırsa, bu, insanların güzəranının yaxşı olmasından xəbər verir. Təbii ki, hotellər də bu uyğunluğu qiymətləndirərək həmin ərəfədə düzgün rəqabət seçirlər. Yəni keyfiyyəti önə çəkib rəqabət aparırlar. Keyfiyyətin artırılması üçün hotelin əməkdaş sayının və qida çeşidlərinin çoxaldılması lazımdır".

Ekspert söyləyib ki, bu gün Azərbaycanda qiymətlərin çox baha, xaricə getməyin isə bundan daha sərfəli olması ilə bağlı insanlarda yanlış fikir formalaşıb: "Hotel kateqoriyasına fikir verməsək, qiymət baxımından Gürcüstanda üçulduzlu hotelə getmək, təbii ki, Azərbaycanda beşulduzlu hotelə getməkdən yaxşıdır. Amma Gürcüstan və yaxud da digər ölkələrdəki üçulduzlu hotellər o keyfiyyəti verə biləcəkmi? Təbii ki, yox. Həmçinin sosial şəbəkələrdə də hər hansı bir şəxsin paylaşımına inanan fikir bildirənlərə rast gəlinir. Məsələn, bir nəfər sosial şəbəkədə yazır ki, 700 manata Gürcüstana 1 həftəlik səfər edərək geri dönüb, lakin hotelin bir gecəsi 350 manatdır. Bu, yanlış bir fikirdir. Gəlin belə müqayisə edək. Məsələn, Azərbaycanda bir gecəsi 250 manata olan hotellə Gürcüstanda eyni kateqoriyadan olan hoteli götürək. Belə olan halda şəxsin Gürcüstanda xərci 700 yox, 7 minə başa gələcək. Yeni Azərbaycanın ümumi iş sektoruna kölgə salan insanları qınayıram və hesab edirəm ki, biz özümüzü, öz fəaliyyətimizi qiymətləndirməliyik".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**

**Hazırda bəşəriyyəti narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri getdikcə daha çox təşviş doğurur.**

# Hava deyil, zəhər uduruq - milyonları öldürən çirkli havanın səbəbi nələrdir?

**Çirkli hava hər il dünyada 7 milyon insanın ölümünə səbəb olur**

İqlim Dəyişmələri üzrə Hökumətlərarası ekspertlər qrupunun son qiymətləndirmə hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. İqlim dəyişikliyinin əsas göstəricisi olan temperaturun artması isə əsasən insan amili ilə bağlıdır. Yəni antropogen fəaliyyətin əsasını təşkil edən karbon, metan, azot oksidləri və xlor-fülor birləşmələri kimi istilik effekti yaradan qazlar Yerin ətrafında istixana tavanını xatırladan örtük əmələ gətirir. Nəticədə atmosfer Günəşdən gələn istiliyi Yerə buraxır, Yerdən kosmosa yönələn enerjinin - istiliyin qarşısını alır və beləliklə də, bu örtük istixana effektinin yaranmasına səbəb olur.

Son 100 illik kosmik müşahidələr göstərir ki, iqlim dəyişikliyinin nəticəsi kimi tufanların, çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti küləklər, qasırğalar, yağıntılar güclənib. Eyni zamanda, sel, daşqın hadisələrinin də tez-tez baş verməsi müşahidə olunur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, çirkli hava il boyu dünyada 7 milyon insanın ölümünə səbəb olub. Avropa Ətraf Mühit Agentliyinin hesablamalarına görə isə hər il “köhnə qitədə” bu problem səbəbindən təxminən 400-500 min insan dünyasını dəyişib.

Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə Konvensiyanın Kioto protokolunu ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Ölkəmiz Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edib. Paris Sazişi ölkələrin təqdim etdiyi Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə (NDC - Nationally Determined Contribution) əsasən öhdəlikləri müəyyən edir.



Azərbaycan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədində baza ili (1990) ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdü, hazırda isə bu öhdəlik 40 faizə çatdırılıb.

Belə ki, 2021-ci ildə Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında Azərbaycan qlobal səylərə öz töhfəsini vermək məqsədilə yeni hədəflə çıxış edərək 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə “netto sıfır emissiya” zonasının yaradılmasını bəyan edib.

**Zəhərli qazlar ən çox hansı ölkənin payına düşür?**

İstilik effekti yaradan qazların qlobal emissiyalarında ən çox payı olan 5 ölkə Çin (28 faiz), ABŞ (25 faiz), Hindistan (7 faiz), Rusiya (5 faiz) və Yaponiyadır (4 faiz). Azərbaycanın payı isə cəmi 0.15 faiz təşkil edir.

Yuxarıda da qeyd etdiyimiz kimi, havaya buraxılan bu cür qazların böyük həcmi inkişaf etməkdə olan dövlətlərin payına düşür. Məsələn, ABŞ-da dünya əhalisinin yalnız 4 faizi yaşayır. Ancaq havaya buraxılan bütün zəhərli qazların 25 faizi Amerikanın payına düşür. Eyni sözləri Almaniya haqqında da demək olar. Almaniyanın əhalisi Yer kürəsi əhalisinin 1 faizini təşkil etsə də, atmosferə buraxılan qazların həcmi 4 faizdir.

**Bu, cinayətdirsə, cəzası nədir?**

Azərbaycanda havanın çirkləndirilməsi Cinayət Məcəlləsinin 251-ci maddəsi ilə tənzimlənir. Çirkləndirici maddələrin havaya buraxılması qaydalarının pozulması və ya avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulması havanın çirkləndirilməsinə və ya onun təbii xassələrinin başqa cür dəyişilməsinə səbəb olduqda beş yüz manatdan min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Əgər havanın çirkləndirilməsi insan sağlamlığına zərər vurursa, bu zaman həmin şəxslər min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu məsələ İnzibati Xətalar Məcəlləsində də yer alıb. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 234-cü maddəsinə görə, atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin pozulması müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi olmadan atmosfer havasına zərərli maddələrin atılmasına, atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirə nəzarət etmək məqsədi ilə quraşdırılmış qurğular, avadanlıq və cihazların istismar qaydalarının pozulmasına, atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin tələblərinə cavab verməyən yeni və yenidən qurulmuş qurğuların və avadanlığın istismara verilməsinə və s. görə, fiziki şəxslər üç yüz manatdan yeddi yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Gələcəkdə necə nəfəs alacağımız atılan karbon qazının miqdarından asılıdır**

Ekspertlər isə bildirirlər ki, iqlimin gələcəkdə necə dəyişməsi, neqativ halların artması atılan karbon qazının miqdarı ilə əlaqədardır. Sənayeləşmə dövründən başlayaraq atmosferə karbon qazının atılması sürəti artıb. Karbon qazının konsentrasiyası artdığı üçün bu da qlobal istiləşməyə səbəb olur. Həmçinin əsas təzahür kimi Azərbaycanda və digər ölkələrdə temperaturun artması qeydə alınır. Əgər atmosferə atılan parnik qazlarının, o cümlədən karbon qazının konsentrasiyası 30 faiz artarsa, qlobal temperatur 1961-1990-cı illərlə müqayisədə normadan 1.5 dərəcə yüksək olacaq. Daha artıq olarsa, müvafiq olaraq temperaturun daha böyük artımları gözlənilir. Bu da bir sıra hallarda qarşısıalınmaz, geriyədönməz neqativ proseslərin başlanğıcına gətirib çıxara bilər. Paris razılaşmasına əsasən Sazişə qoşulan ölkələr 2030-cu ilə qədər 1990-cı ilin səviyyəsinə nisbətən atmosferə karbon və digər parnik qazlarının atılmasını 35 faiz azaltmalıdır. Burada məqsəd ondan ibarətdir ki, atmosferdə karbon qazının miqdarı azalsın və istiləşmənin qarşısı alınsın. Bu, bir çox dövlətlərdə bu öhdəliyi yerinə yetirmək iqtisadi çətinliklər törədə bilər. Çünki karbon qazının atmosferə atılmasında əsas artım sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədardır. Buna görə də bununla paralel bərpa olunan enerjidən, yeni külək enerjisindən, Günəşin, çayların suyunun enerjisindən istifadə olunmalıdır. Həmin enerji mənbələri atmosferə karbon və digər parnik qazlarının atılmasına səbəb olmur. Bu da dünyanın bir çox ölkələrində tətbiq edilir. Danimarkada bir çox şəxsi mənzilin dam örtüyündə Günəş panelləri quraşdırılıb. Nəticədə insanlar həm özləri həmin enerjidən istifadə edir, həm də artıq qalan enerjini dövlətə satırlar. Azərbaycanda da belə layihələr mövcuddur. Xızı, Qobustan ərazilərində külək turbinlərinin quraşdırılması üzrə layihələr var. Azad edilmiş ərazilərdə Günəş və külək enerjilərindən istifadə edilməsi nəzərdə tutulub. Xəzər dənizi üzərində küləyin enerjisindən istifadə etmək layihələri də işlənməkdədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 91 (8464) 25 may 2024

# Xaricdən 5 milyard borc istəyirik- səbəblər

## Ölkənin ödəniş imkanları əlavə maliyyə cəlb olunmasını mümkün edir

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 23-də keçirilən iclasında maliyyə naziri Samir Şərifovun verdiyi bir açıqlama Azərbaycanda ciddi müzakirə olunmaqdadır. Söhbət Azərbaycanın xaricdən borc cəlb etməsindən gedir. İclasda nazir bildirib ki, ölkənin xarici dövlət borcu kifayət qədər aşağı səviyyədə olsa da, onun müəyyən qədər artırılması nəzərdə tutulur: "Amma aşağı səviyyədə olması ilə yanaşı müəyyən qərarlar qəbul edilib ki, maliyyə kredit təşkilatları ilə əməkdaşlığı bir qədər genişləndirək. Bununla əlaqədar xarici dövlət borcunun təxminən 10 milyard dollar səviyyəsinə qədər artırılması nəzərdən keçirilir. Hazırda bu borc 5,5 milyard dollar təşkil edir. Bu il də kifayət qədər ödənişlərimiz olacaq. Bu bizə imkan verir ki, xarici valyutada mühafizəkar borclanma siyasəti apararaq, eyni zamanda ölkəmiz qarşısında duran böyük infrastruktur layihələri icra edə bilək".**



Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə deyib ki, 2023-cü ildə Azərbaycanda xarici borclanma ilə bağlı 750 milyon manat ekvivalentində limit müəyyən edilsə də, borc cəlb edilməyib: "Ötən il daxili borclanma ilə bağlı limit isə 1,8 milyard manat müəyyən edilmişdi, bunun da 1,7 milyard manatından istifadə olunub".

Hesablama Palatasının 2023-cü ilin dövlət büdcəsinin icrasına dair rəyinə əsasən 2024-cü il 01 yanvar tarixinə Azərbaycanın dövlət borcunun (xarici və daxili) ümumi məbləği 26 milyard 850,4 milyon manat və ya 2023- cü il üzrə ÜDM-in 21,8 faizini təşkil edib. Bunun 10 milyard 984,0 milyon manatı xarici, 15 milyard 866,4 milyon manatı daxili borcdur.

Hesabat ili ərzində birbaşa xarici dövlət borcunun həcmində azalma müşahidə edilib: "Azalmanın səbəbi il ərzində kreditorlara geri ödənilmiş əsas borc ödənişlərinin həcminin yeni cəlb edilmiş kredit vəsaitlərindən artıq olması olub, eyni zamanda ÜDM-in nominal ifadədə əvvəlki illə müqayisədə azalması şəraitində xarici dövlət borcunun ÜDM-ə nisbəti 0,4 faiz bəndi artıb. Xarici dövlət borcu üzrə 01.01.2024-cü il tarixinə kredit sazişləri üzrə cəlb olunması nəzərdə tutulan vəsait 10 milyard 766,5 milyon ABŞ dolları təşkil edərək 01.01.2023-cü il tarixinə müvafiq göstərici ilə müqayisədə 3,0 milyon ABŞ dolları və ya 0,03 faiz azalıb. Əvvəlki illə müqayisədə istifadə olunmuş və hazırda dövlət borcu hesab edilən xarici öhdəliklər 232,0 milyon ABŞ dolları məbləğində və ya 3,5 faiz azalaraq 6 milyard 461,2 milyon ABŞ dolları təşkil edib. İl ərzində birbaşa xarici dövlət borcu üzrə imzalanmış xarici borc müqavilələri əsasında 150,3 milyon ABŞ dolları dəyərində vəsait cəlb edilib və hesabat ilində 384,6 milyon ABŞ dolları məbləğində əsas borc öhdəlikləri kreditorlara geri qaytarılıb".

Palata qeyd edir ki, son 5 ildə xarici borcun azaldığı bir dövrdə dəyişkən faizli kreditlərin xüsusi çəkisinin artımı müşahidə olunur ki, bu da hazırda dünyada istinad faiz dərəcələrinin artması kontekstində borca xidmət xərclərinin artmasını şərtləndirir. Bundan əlavə, birbaşa xarici dövlət borcunda 5 illik öhdəliklərin payının yüksək olması, habelə birbaşa cəlb edilmiş kreditlər üzrə əsas borc ödənişlərinin yenidən maliyyələşdirmə vasitəsilə həyata keçirilməsi cari makroiqtisadi şəraitdə təkrarmaliyyələşmə və faiz dərəcələri ilə bağlı əlavə risk faktorlarının yaranması ehtimalını aktuallaşdırır. Hesabat dövrü ərzində beynəlxalq maliyyə-kredit qurumları ilə imzalanmış sazişlər üzrə 5 ilə qədər kreditorlara geri ödənilməli olan borcun məbləğində və xüsusi çəkisinin dinamikasında ilin əvvəli ilə müqayisədə 205,4 milyon ABŞ dolları və ya 4.9 faiz faiz bəndi artım müşahidə olunub ki, bu da borcun 3 milyard 390,0 milyon ABŞ dollarının və ya 52,5 faizinin qısa müddətdə kreditorlara geri qaytarılmasını şərtləndirir. Lakin 2023-cü ildən etibarən xarici borc üzrə əsas borc ödənişlərinin dövlət büdcəsi xərclərindən çıxarılaraq daxili təkrarmaliyyələşmə hesabına həyata keçirilməsi və bundan sonrakı dövrlərdə də eyni prinsipin tətbiqinin nəzərdə tutulması, həmçinin daxili borc portfeli üzrə 2-3 illik istiqrazların təkrar maliyyələşdirilməsi tələbi, daxili bazarın likvidliyinin aşağı olduğunu nəzərə alaraq bu qədər vəsaiti birdən-birə qarşılamayacağı riskini artırır. Bu tələbin qarşılanması üçün isə daha yüksək faizlərlə emissiya mümkündür ki, bu da yekunda əlavə faiz xərclərinə səbəb ola biləcəyi və maliyyə çətinliklərinin yarana biləcəyi ehtimalını aktuallaşdırır".

Qeyd edək ki, 2023-cü ilin sonuna faktiki xarici borcun yalnız 2 milyard 287,3 milyon dolları xaricdə yerləşdirilmiş dövlət qiymətli kağızları üzrədir -yəni bilavasitə dövlətin borcudur. Qalanı müxtəlif iri dövlət şirkətlərinin və nazirliklərin dövlət zəmanəti ilə aldıqları kreditlərdir. Onlardan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin faktiki -yəni xərclənmiş kredit borcu 1 milyard 124 milyon dollar(cəlb olunması nəzərdə tutulan məbləğ 2 milyard 649,40 milyon dollar), "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin 202,6 milyon dollar(507,80 milyon dollar), "Azərsu" ASC-nin 678,20 milyon dollar(1 milyard 173,7 milyon dollar ), Kənd Təsərrüfatı Nazirliyinin 145,6 milyon dollar(216,8 milyon dollar), "Azərbaycan Dəmir Yolları" QSC-nin 753,1 milyon dollar(1milyard 26,60 milyon dollar), NMR Meliorasiya və Su təsərrüfatı Agentliyinin 192,2 milyon dollar(192,2 milyon dollar) təşkil edir.

Azərbaycanın təxminən 5 milyard dollar civarında xarici borclanmaya getməsinin əsasında infrastruktur layihələrinin maliyyələşdirilməsi ehtiyacı dayanır. Belə ki, iki böyük beynəlxalq nəqliyyat dəhlizinin iştirakçısı olan Azərbaycanda infrastrukturun sürətlə artması gözlənilən yük həcmlərini ötürmək potensialına çatdırılması vacibdir. Bu, Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində dəmiryol xətti ilə bağlı xüsusilə sürətli addımların atılmasını zəruri edir. Belə ki, "N.Trans Lab" beynəlxalq agentliyinin ekspertlərinin araşdırmasına görə, Azərbaycanda yükgötürmə qabiliyyəti 30 milyon ton olan Sumur-Sumqayıt ikixətli elektrikləşdirilmiş zolaq olsa da, Sumqayıtdan Astaraya (Azərbaycan) qədər yükgötürmə qabiliyyəti 10 milyon ton olan biryollu elektrikləşdirilməyən hissə yükdaşımaların artırılması üçün əngəlləyir. Bu əngəli aradan qaldırmaq üçün əlavə magistral dəmiryolunun çəkilməsi və 244 kilometrlik Ələt-Astara hissəsinin elektrikləşdirilməsi lazımdır ki, bunun üçün də 1,7 milyard dollar investisiya yatırılması tələb olunur.

Bir müddət öncə S.Şərifov bildirmişdi ki, Azərbaycanın Asiya İnkişaf Bankından dəmir yolu nəqliyyatı infrastrukturunun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması və bu proseslərin idarə olunması üçün müəyyən layihələrdən ötrü maliyyə vəsaitlərinin cəlb edilməsi gözlənilir.

Nazir həmçinin qeyd edib ki, Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişafı böyük vəsait tələb edir, ona görə də onların cəlb edilməsi üçün Dünya Bankı, Asiya İnkişaf Bankı və s. kimi beynəlxalq maliyyə institutlarına və strukturlarına üstünlük verilir: "Özəl sektorun Orta Dəhlizin inkişafına cəlb edilməsi mümkündür. Bu sektor bu cür layihələri maliyyələşdirir, lakin onlar kifayət qədər vəsait tələb edir. Bugünkü mərhələdə biz daha çox irimiqyaslı infrastruktur layihələrindən danışırıq. Bu, dəmir yolu və avtomobil yolları kommunikasiyalarının, yəni kifayət qədər ciddi fiziki infrastrukturun inşasıdır".

S.Şərifov qeyd edib ki, bu cür layihələrdə geri qaytarılma müddəti kifayət qədər uzundur, bu da o deməkdir ki, bu şəraitdə özəl maliyyələşdirmə bir qədər baha görünür: "Ona görə də digər maliyyə mənbələrinə, əsasən beynəlxalq maliyyə institutlarına üstünlük verilir. Bu maliyyə institutlarından daha uzun müddətə və daha aşağı faizlə vəsait toplamaq olar. Bunlara Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı, bir sıra ərəb ölkələrində müxtəlif inkişaf fondları və s. aiddir".

Onun sözlərinə görə, dövlət bu vəsaitlərin qaytarılması üçün məqsədyönlü uzunmüddətli strategiya hazırlayır.

Xarici borclanma tələb edən daha bir istiqamət Azərbaycanda suvarma sistemlərinin müasirləşdirilməsi, mövcud torpaq kanalların örtülü beton kanallarla əvəz olunmasıdır. Hökumət artıq bu işlər üçün kreditlərin alınmasına başlayıb.

Ölkənin ödəniş imkanları əlavə maliyyə cəlb olunmasını mümkün edir.

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

## "Nar" ölkə üçün önəmli sosial layihələri dəstəkləməyə davam edir




**"Nar" cəmiyyətin sosial və iqtisadi həyatına müsbət dəyişikliklər gətirən faydalı layihələrə dəstəyini fəal şəkildə davam etdirir. Azərbaycanı BMT-nin Qlobal Sazişində təmsil edən ilk telekommunikasiya brendi kimi "Nar" BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasını təşviq etmək və təhsilə dəstək istiqamətindəki Korporativ Sosial Məsuliyyət (KSM) layihələrinə xüsusi önəmlə yanaşır.**

Mobil operator üçün sosial layihələrin əhəmiyyətini vurğulayan "Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib: "Korporativ sosial məsuliyyət biznes olaraq strategiyamızın əsas sütunlarından biridir. Təkcə 2023-cü ildə biz 30 sosial təşəbbüsü dəstəkləmişik, son 3 ildə isə sosial layihələrə 10 milyon manatdan çox sərmayə yatırmışıq. Bu, bizim cəmiyyətdə müsbət dəyişiklik etmək öhdəliyimizə sadiqliyimizi göstərir. "Nar" olaraq gələcəkdə də müxtəlif sosial layihələr həyata keçirməyə davam edəcəyik".

"Nar"ın dəstəyi ilə ərsəyə gətirilən ilk Azərbaycan jest dili elektron lüğəti - "jestdili.az" 30 mindən çox eşitmə və nitq məhdudiyyətli azərbaycanlıya Azərbaycan jest dilini tamamilə pulsuz öyrənmək imkanı verib. "Jestdili.az" əvəzsiz və faydalı resurs olmasına görə beynəlxalq dərəcədə də yüksək qiymətləndirilib və "Korporativ Məsuliyyət" kateqoriyasında ən uğurlu layihə kimi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyasının "Qızıl Dünya Mükafatı"na layiq görülüb.

"Nar"ın KSM strategiyasının digər istiqaməti Azərbaycan gəncləri arasında idman və sağlam həyat tərzinin təbliğidir. "Nar" 2023-cü ildən Azərbaycan Voleybol Federasiyasının rəsmi tərəfdaşıdır və milli komandalarımızın həm yerli, həm də beynəlxalq arenalarda qazandığı uğurlarla qürur duyur. Bundan əlavə, "Nar" "Zirə" futbol klubunun rəsmi tərəfdaşı kimi futbol, şahmat, boks və digər idman növləri üzrə təşəbbüsləri dəstəkləyir.

"Nar" sosial təşəbbüslərin həyata keçirilməsinə davamlı olaraq öz töhfəsini verir. "Nar"ın faydalı sosial layihələri haqqında ətraflı məlumatı buradan ttps://www.nar.az/senin-ucun/xeberler?page=1&category=Layih%C9%99l%C9%99r əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

YENİ MÜSAVAT
Son səhifə
N 91 (8464) 25 may 2024
May

## Bunları bilirsinizmi?

* Yayda saçlara çoxlu toz qonur. Bunun üçün baş şotkasına köhnə kapron corab dolayır, sonra darayırlar.

* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və ya bitki yağı sürtürlər.

* Yanmış yerə yumurta ağında isladılmış əski qoyurlar. Bu ağrını azaldır və yara daha tez sağalır. Yanmış yerə tünd çay, marqanez məhlulu da qoymaq faydalı olur.

* Yorğunluğu götürmək üçün ayaqları duzlu suyla vanna etməkdə fayda var.

* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumuşaq və elastik olur.

* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.

* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.

* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.

* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.

* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini iliq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.

## Tibdə ixtira: qan analizi ilə...

**Rusiyalı alimlər qan testi ilə beyin xərçəngini erkən mərhələdə müəyyən etməyi öyrəniblər. Araşdırmanın nəticələri "Pharmaceutics" jurnalında dərc olunub. Glioma - beyin şişinin ən ağır növlərindən biridir. Onu erkən mərhələdə müəyyən etmək və hətta simptomlar başlayandan sonra diaqnoz qoymaq çətindir. Bu tip xərçəng adətən şiş çıxarıldıqdan sonra aparılan histoloji müayinə ilə təsdiqlənə bilər.**

Tomsk Dövlət Universitetinin alimləri isə qandakı biomarkerlərə əsaslanaraq bu xəstəliyi müəyyən etmək üçün yeni qeyri-invaziv üsul hazırlayıblar. Onlar bunun üçün Raman spektroskopiyasından istifadə ediblər. Bu üsul qanda şiş hüceyrələri tərəfindən ifraz olunan spesifik kimyəvi birləşmələri yüksək dəqiqliklə aşkar etməyə imkan verir.

Alimlərin sözlərinə görə, yeni ixtiradan gələcəkdə digər şişlərin aşkarlanmasında da istifadə etmək olar.

## İtalyan iş adamı pendirlərə görə həlak oldu

**İtalyalı iş adamı Cakomo Kyapparini özünə məxsus pendir fabrikində pendir rəflərinin üzərinə aşması nəticəsində dünyasını dəyişib.**

"Grana Padano" pendir korporasiyasının sahibi üzərinə 25 min baş pendir düşəndən sonra yoxa çıxıb. Bütün gecə davam edən axtarışlar nəticəsində 75 yaşlı kişinin meyiti tapılıb.

Hadisə Berqamo əyalətindəki pendir fabrikində baş verib. Ehtimallara görə, Cakomo Kyapparini faciə zamanı cihazın fəaliyyətini tənzimləyirmiş.

Qeyd edək ki, Kyapparininin mülkiyyətində 100 hektardan çox kənd təsərrüfatı torpaqları var. Müəssisə ildə 15 min baş pendir istehsal edir.

"Grana Padano" isə parmesan dadında, sərt və yarımyağlı pendirdir.

# Süni intellektin daha bir təhlükəsi



**Süni intellekt istənilən parolları klaviaturanın səsi ilə "sındırmağı" öyrənib. Bildirilir ki, britaniyalı tədqiqatçılar və proqramçılardan ibarət komanda 95%-ə qədər dəqiqliklə mikrofondan istifadə etməklə qeydə alınan klaviatura düymələrini mənimsəmək üçün süni intellektə təlim keçib. Tədqiqatçılar ehtiyat edirlər ki, belə bir "səsli" hücum maşın öyrənməsinin sürətli inkişafı ilə birləşərək, tezliklə hakerlərə kompüterləri daha asan sındırmaq imkanı verəcək.**

## Ərinə futbola baxmağa imkan vermədi, cəzalandı



**İngiltərəli qadın ərinin dostları ilə futbola baxmasına mane olduğu üçün təqibə görə hakim qarşısına çıxarılıb.**

Qarşılaşmanın yayımı zamanı o, ərinə mesajlar yazıb, onu təhqir edib və evə qayıtmasını tələb edib.

Məlumata görə, 59 yaşlı Coan Hili əri Stiv dostları ilə birlikdə "Çelsi" - "Mançester Yunayted" oyununa baxarkən ona dəfələrlə zəng edib və mesaj yazıb. Kişi bezərək zənglərə cavab vermədikdə isə qadın ərinin dostlarının diqqətini yayındırmağa başlayıb. Hilinin həmin anda sərxoş olduğu bildirilib.

Stivin polisə şikayətindən sonra iş məhkəməyədək gedib çatıb. Coan təqibdə günahını etiraf edib və 12 aylıq ictimai xidmətə məhkum olunub.

Bundan əlavə, qadın 80 funt sterlinq cərimə ödəməli, 20 günlük reabilitasiya kursundan keçməli və əlavə olaraq 234 funt sterlinq vəkillik xərclərini qarşılamalıdır.



## Qardaşı dişlədi, ölümcül xəstəliyə yoluxdu

**Ailə münaqişəsi zəminində kişi onu dişləyən qardaşından ölümcül xəstəliyə yoluxub. Bu barədə "Mirror" məlumat yayıb. Hadisə ABŞ-da baş verib, ailə davası çox pis bitib. Bildirilib ki, kiçik ailə davası zamanı qohumu dişlədiyi üçün kişi yeriyə bilməyib. Məlum olub ki, o, bu yolla ətyeyən bakteriyalara yoluxub. Nəticədə Florida ştatının Tampa Bay şəhərindən olan Donni Adams az qala ayağını itirib.**

Bakteriyaların onun bədəninə ailə məclisində davanı dağıtmaq istəyərkən aldığı dişləmədən sonra açıq yaradan daxil olduğu dəqiqləşib. Bu səbəbdən 52 yaşlı kişi əməliyyat otağına düşüb, həkimlər burada təkcə ayağını deyil, həm də həyatını xilas ediblər. Ancaq bunun üçün xəstənin budun ön hissəsinin toxumalarının təxminən 70 faizi kəsilməli olub.

Kişi dişlədikdən sonra əvvəlcə özünü müalicə ilə məşğul olub. Yalnız ağrıları şiddətlənməyə davam etdikdə o, xəstəxanaya gedib və orada ona bəzi antibiotiklərlə birlikdə tetanoz vurulub. Amma getdikcə səhhəti pisləşib və hər şey o yerə çatıb ki, ayağının üstündə dayana bilməyib.

Sonra Adams təcili yardım otağına gedib və orada doktor Fritz Brink bunun ciddi problem olduğunu görüb. Sağlam bədən toxumalarını yeyən ətyeyən nekrotizan fasiit bakteriyalarını kəşf edib. Nəticədə əməliyyatla o, kişinin həyatını və ayağını xilas edib.

## İt-pişiyi öpmək olarmı?



**Heyvansevərlər ev heyvanlarını öpməkdən özünü saxlaya bilmir. Bəs itləri, pişikləri öpmək təhlükəsizdirmi? Vaşinqton xəstəxanasının infeksionisti Qlenn Vortmann itin üzü yalamasına yol verməyin təhlükəsindən danışıb: "Hətta ev heyvanın olsa belə üzünü, burnunu, ağzını öpmək olmaz. Və itə sənin üzünü yalamağa da imkan vermək olmaz. Mənim də pişiyim var, lakin mən ona üzümə yaxınlaşmağa icazə vermirəm.**

Belə bir mif var ki, it ağız suyu insandan təmizdir, heç bir təhlükəsi yoxdur, hətta yaraya çəkilsə sağaldır. Bu heç də belə deyil. İtlərin ağız boşluğunda müxtəlif tip bakteriyalar var, az da olsa onlarda oln infeksiyaların keçmə ehtimalı var.

Məsələn, Pasteurella bakteriyası it və pişiklərin ağzında artır. O, insanlara keçə bilər.

Onları öpmək açıq yara və xoraların da infeksiyalaşmasına səbəb ola bilər.

İtlərdə olan bəzi infeksiyalar insanlarda çox tez proqressivləşir, müalicə isə antibiotikterapiyadır.

İtlərdən qurdların da keçməsi riski var. Ev heyvanları daim qurd əleyhinə müalicə almalıdır.

Məsələn, lyambliya, kriptosporidiumlar it nəcisində olur, itlər özlərini yalayıb təmizləyir, sonra sahibini yalayarsa və ya ağzı, dili insana dəyərsə, keçə bilər.

Körpələr, uşaqlar heyvanlardan daha çox yolux bilir. Körpələrin immun sistemi heyvan mikrobiologiyasına hələ hazır deyil.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.